**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SİYASİ DİSKURSDA ARQUMENTASİYA PROBLEMİ

İxtisas: 5704.01 – Dil nəzəriyyəsi

Elm sahəsi: Filologiya

İddiaçı: **Aytən Musa qızı Allahverdiyeva**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

Rəsmi opponentlər:

filologiya elmləri doktoru, professor
**İlham Mikayıl oğlu Tahirov**

filologiya elmləri doktoru, professor
**Əfqan Əli oğlu Abdullayev**

filologiya elmləri doktoru, professor
**Gülçöhrə Babaəli qızı Alıyeva**

filologiya elmləri doktoru, dosent
**Nuridə Səməd qızı Novruzova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
**Nadir Balaoğlan oğlu Məmmədli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Yusif qızı Məmmədova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Məsud Əhməd oğlu Mahmudov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir cəmiyyətdə ictimai-siyasi məsələlər açıq rəylərə təqdim olunduğundan, mediada, sosial şəbəkələrdə və publisistik ədəbiyyatda fəal müzakirə obyektinə çevrilmişdir. Müəyyən ideologiyanın gerçəkləşməsi vasitəsi olan siyasət kommunikativ müstəvidə dil vasitəsilə, dildə emal olunmaqla həyata keçir. Bu baxımdan, dünyada baş verən təlatümlü siyasi hadisələrin fonunda getdikcə siyasi kommunikasiyanın əhəmiyyətinin yüksəlməsi və linqvistik tədqiqatların vüsət alması müşahidə olunur.

Azərbaycan dilçiliyi bu gün siyasi kommunikasiya tədqiqatları istiqamətində əldə edilmiş nəticələrin dərkində dil fenomeninin əhəmiyyətinin yüksəlməsi ənənələrinin inteqrativ inkişaf məkanına çevrilmişdir. Yerli dilçi-tədqiqatçıların bu sahəyə, xüsusilə siyasi diskurs məsələlərinə marağı xeyli artmışdır.

Siyasi diskursla bağlı olan və elmlərarası səciyyə daşıyan bir çox məsələlər mətn dilçiliyi, diskurs, koqnitiv linqvistika, linqvopolitologiya, praqmalinqvistika, politologiya və psixolinqvistik qarşılıqlı tədqiqatlara cəlb edilir. Siyasi diskursun sistemyaradıcı əlamətlərinin, vahidlərinin, baza konseptlərinin, janr rəngarəngliyinin araşdırmaya cəlb edilməsi, ilk növbədə siyasət dili və siyasi dil dixotomiyasını elmi müstəvidə önə çəkir. Həmçinin, institusional diskursun hüquqi, siyasi, dini, elmi və s. şəkillərinin yalnız dildaxili münasibətlər prizmasından deyil, ayrıca mədəniyyət daşıyıcısının dil kimliyi baxımından araşdırılması zərurəti yaranmışdır. Beləliklə, siyasi diskurs bənzər predmetə malik elmi tədqiqatların ortaq obyektinə çevrilmişdir.

Siyasi diskurs fenomeninin aktuallığını qoruyub saxlaması onun kifayət qədər öyrənilməməsini göstərir və XXI əsrdə politoloqlarla, sosioloqlarla yanaşı dilçilərin də bu mövzuya marağı artmaqdadır. Bununla belə, Azərbaycan dilçilərinin tədqiqatları ümumi siyasi diskurs konsepsiyalarının, konkret dil və ya nitq vahidlərinin, siyasi diskurs komponentlərinin ümumiləşdirilmiş təsvirini əhatə edir.

Siyasi diskurs yüksək ritorik və manipulyativ səciyyəyə malik

olduğundan, siyasi kommunikasiya mexanizmlərinin aşkar edilməsi ilə yanaşı, dil-nitq təsir vasitələrinin və arqumentasiya strategiyalarının araşdırılması baxımından da yüksək əhəmiyyətə malik ayrıca verbal kommunikasiya növüdür. Bu baxımdan, siyasi diskursda sözügedən təsir vasitələrinin aşkar edilməsi ilə bərabər, manipulyasiya vasitəsilə pərdələnmiş gerçək niyyətlərin auditoriya tərəfindən dərkində onların rolunun araşdırılması aktuallıq əldə etmişdir.

Siyasi diskurs institusional mahiyyət daşımaqla yanaşı, arqumentativ səciyyəyə malikdir. Bu istiqamətdə həyata keçirilən tədqiqatlar bir çox hallarda arqumentasiyanın, onun formalarının (arqument, sübut, təkzib, təsdiq, tənqid), arqumentasiya strategiyalarının təhlilə cəlb edilməsini labüd edir. Siyasətçi məhz arqumentasiya prosesində kommunikativ, ritorik və linqvistik kompetensiyasını nümayiş etdirərək özünü, eyni zamanda bir natiq kimi reallaşdırır. Siyasi diskursda istifadə olunan arqumentasiya strategiyalarının doğruluq dərəcəsini düzgün qiymətləndirən adresat adresantın niyyətlərini və gələcək siyasi fəaliyyətini proqnozlaşdırmağa qadirdir. İstər siyasi mətnlərin, istərsə də də siyasi çıxışların, dialoqların, debatların və müsahibələrin təhlili prosesində auditoriyanı inandırmaq məqsədilə siyasi diskursda istifadə edilən arqumentasiya strategiyaları, eləcə də məqsədyönlü manipulyativ səciyyəyə malik olan yanlış arqumentlərin tədqiqi maraq doğurur. Bu səbəbdən, siyasi diskursda arqumentasiyanın tədqiqat obyekti kimi seçilməsi və arqumentativ potensiala malik nitqin qurulması üçün xarakterik olan linqvistik-ritorik vasitələr sisteminin ətraflı tədqiq edilməsi nəzəri və praktik baxımdan əhəmiyyətlidir.

Fərqli sahələrdə müxtəlif məqsədlər üçün istifadə olunan və insan təfəkkürünün təkamül etdiyi ən təsirli inandırma fenomeni olan arqumentasiya universal səciyyəyə malikdir. Məhz bu fakt elmi təfəkkürün inkişafı nəticəsində arqumentasiyanın XX əsrdə humanitar elmlərin fənlərarası sahəsinə daxil olmasını labüd etmişdir. Arqumentasiya strategiyaları, mübahisələrin qurulması üslubu, məntiqli və ya yanlış arqumentlərin seçimi kimi nüanslar natiqin etosunu formalaşdırır və onun auditoriya tərəfindən

qiymətləndirilməsində aparıcı rol oynayır.

Arqumentasiya nəzəriyyəsinin Avropada XX əsrin ortalarında fəal şəkildə inkişaf etməsinə baxmayaraq, postsovet respublikalarının elm məkanında bu istiqamət yalnız XXI əsrin əvvəllərində aktuallaşmağa başladı. Keçmiş Sovetlər birliyi məkanında arqumentasiya nəzəriyyəsinin humanitar sahədə vüsət ala bilməməsi fikir ayrılıqlarını qəti şəkildə rədd edən vahid ideologiyanın mövcudluğu səbəbi ilə tətbiq edilən və azadfikirliliyə mane olan doqmatik ənənədən qaynaqlanırdı. Arqumentasiya riyaziyyatın və formal məntiqin tədqiqat dairəsi ilə məhdudlaşırdı.

Təəssüflə qeyd etmək lazımdır ki, arqumentasiyanın fəlsəfə, psixolinqvistika, linqvistika və sair sahələrdə tipik məntiqi hadisə kimi qəbul edilməsi stereotipi hələ də davam edir. Bu gün fənlərarası xarakteri artıq qəbul edilsə də, arqumentin xüsusiyyətlərinin və növlərinin təcrübi təsviri zamanı linqvopraqmatik səciyyə yenə də kölgədə qalır, sırf məntiqi qiymətləndirmələrə qayıdış baş verir. Hələ də arqumentin rasional və irrasional növlərə bölünməsi onun qeyri-məntiqi komponentlərinin təkzibinə əsaslanır.

Sevindirici haldır ki, son illərdə bu çatışmazlıqları aradan qaldırmaq meyilləri müşahidə edilməkdədir. Arqumentasiya problemlərinə diqqətin artması bu mürəkkəb fenomenin öyrənilməsinə birtərəfli yanaşmanı aradan qaldırmaq üçün müxtəlif sahələrdə çalışan alimlərin səylərinin birləşməsinə səbəb olmuşdur. Rasional təfəkkür sahəsi ilə məhdudlaşmayan, psixoloji və linqvistik mexanizmləri də öyrənən arqumentasiya nəzəriyyəsi arqumentasiyanın insan şəxsiyyətinin rasional və emosional, hətta ekzistensial əsaslara malik verbal ünsiyyət prosesi olması təsəvvürünü formalaşdırdı.

Bu günədək Azərbaycan dilçiliyində arqumentasiyanın linqvistik müstəvidə tədqiqata cəlb edilməməsi, xüsusilə də siyasi diskursda arqumentləşdirmənin linqvistik xəritəsini əhatə edən fundamental əsərin mövcud olmaması dissertasiya işinin mövzusunun aktuallığını sübuta yetirir.

Qərb və Rusiya dilçiliyində siyasi diskurs, siyasət dili, siyasət ilə dilin əlaqələri, linqvopolitologiya məsələləri T.van Deyk, R.Uodak, N.Feyəklou, M.Fuko, A.Biəd, P.Çilton, P.Bordye,

M.Edelman, S.İli, D.Qraber, D.Qrin, D.Hauəs, A.Hyuinqs, C.Cozef, Q.Kress, B.Hok, H.Lassuel, A.Pelinka, C.Uilson, V.Dikmann, A.Baranov, E.Şeyqal, A.Çudinov, E.Budaev, E.Kazakeviç, M.Qavrilova, Q.Xazaqerova, P.Serio, A.Cioeva, A.Semyonov, V.Demyankov, V.Karasik, V.Çernyavskaya, O.Bartaşova, O.Vorobyova, V.Qerasimov, M.İlyin, A.Qolodnov, P.Qureviç, A.Zaytsev, Z.Komarova, E.Popova, A.Romanov, K.Rıbaçuk, Y.Sorokin, M.Triçik və başqalarının əsərlərində tədqiq edilmişdir. Dünya dilçiliyində linqvoarqumentasiya problemləri, arqumentasiya nəzəriyyəsi və arqumentasiya strategiyaları F.İmeren, R.Qrutendorst, H.Perelman, L.Olbrext-Titeka, S.Tulmin, F.Henkemans, D.Bödsell, L.Qrork, S.Ceykobs, A.Alekseev, D.Bokmelder, A.Baranov, A.Belova, V.Demyankov, N.Fanyan, A.Almossavi, H.Constoun, F.Yunqsleyqer, D.Uolton, P.Parşin, T.Tretyakova, V.Serqeyev, L.Vasilyev, V.Bryuşinkin, N.Qronskaya, N.Danilevskaya, N.Dobryakova, A.Karaмova, A.İvin, A.Kadırli, A.Markoviç, V.Moskvin, O.Revenko, Q.Ruzavin, V.Tseptsov və digər tədqiqatçılar tərəfindən araşdırmaya cəlb edilmişdir.

Azərbaycan dilçiliyində Sərxan Abdullayev, Fəxrəddin Veysəlli, Azad Məmmədov, İlham Tahirov, Fikrət Şiriyev, Zeynəb Cəfərova, Məcid Əfəndiyev, Salatın Əhmədova, İlhamə Hacıyeva, Təranə Hacıyeva, Əlikram Tağıyev, Fikrət Nəbiyev və başqa dilçilər siyasi dili xüsusi işarə sistemi və konkret linqvistik formaların və nitq texnikalarının üstünlük təşkil etdiyi verbal kommunikasiya sahəsi kimi nəzərdən keçirir, siyasi diskursu statusyönümlü ünsiyyət forması kimi səciyyələndirirlər.

**Tədqiqatın obyekti və predmeti.** Siyasi diskursda siyasətçilərin müraciət etdikləri linqvistik-ritorik arqumentasiya strategiyaları tədqiqatın obyektini təşkil edir. Tədqiqatın predmeti siyasi diskursda siyasətçinin praqmatik niyyətindən, kommunikativ məqsədindən və ritorik üslubundan asılı olaraq arqumentləşdirmə funksiyasını yerinə yetirən və arqumentasiyanın effektivliyinin yüksəldilməsində bilavasitə rolu olan dil və nitq vasitələrinin tədqiq edilməsindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Siyasi diskursda istifadə olunan linqvistik-ritorik arqumentasiya strategiyalarının

müəyyənləşdirilməsi və səciyyələndirilməsi tədqiqat işinin məqsədini təşkil edir. Bu məqsəddən irəli gələn aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

– "siyasi diskurs" termininin ətraflı şərhini vermək və ayrıca diskurs növü kimi onun sərhədlərini fərqləndirmək;

– siyasi diskursda "dil kimliyi" obrazını səciyyələndirmək;

– siyasi diskursun funksiyalarını və təhlil metodlarını müəyyənləşdirmək;

– seçkiqabağı nitqlərin təhlili əsasında siyasi diskursun kompozisional sxemini hazırlamaq;

– siyasi diskursun əsas koqnitiv və praqmatik struktur elementlərini makro (qlobal) və mikro (lokal) səviyyələrdə səciyyələndirmək;

– siyasi diskursun leksik tərkibini müəyyənləşdirmək;

– siyasi diskursda linqvistik elementləri milli dəyərlər xəritəsinin tərkib hissəsi kimi fərqləndirmək;

– siyasi diskursda məsafə strategiyasının qrammatik ifadə formalarını göstərmək;

– siyasi diskursda presedentliyin təzahür formalarını aşkar etmək;

– arqumentasiyanın nəzəri əsaslarını və tədqiqat metodikasını təqdim etmək;

– arqumentin növ müxtəlifliyini təfsir etmək;

– arqumentasiyanın effektivliyinə yönəlmiş linqvistik və ekstralinqvistik komponentlərin nisbətini aşkar etmək;

– siyasi diskursda aparıcı arqumentasiya strategiyalarını fərqləndirmək, onların linqvistik ifadə formalarını və ritorik potensialını qiymətləndirmək;

– siyasi diskursda ən çox rast gəlinən linqvistik təsir vasitələrini müəyyən etmək və arqumentləşdirmədə onların rolunu aşkar etmək;

– siyasi diskursda arqumentasiyanın həyata keçirilməsində dil-nitq təsir vasitələrinin təsnifat meyarlarını müəyyənləşdirmək və aşkar olunan ən fəal vasitələri müvafiq səviyyələrdə qruplaşdıraraq təhlil etmək.

**Tədqiqat metodları.** Dissertasiya işində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi zamanı siyasətçinin nitq davranışının müfəssəl təsvirinə, onun siyasi fəaliyyətində kommunikativ-arqumentativ strategiyaları öyrənməyə və natiqin dil kimliyini ifadə etməyə imkan verən kompleks linqvistik təhlil metodikası tətbiq edilmişdir. Müvafiq olaraq, diskurs təhlili, funksional-praqmatik təhlil, linqvopraqmatik təhlil, konseptual təhlil, kontent təhlili, məntiqi-semantik təhlil, praqma-dialektik yanaşma və arqumentasiyanın modelləşdirilməsi metodlarından istifadə edilmişdir.

Bu metodikanın tətbiqi vasitəsilə Azərbaycan, rus və ingilis dillərində Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin, Türkiyə, Rusiya, ABŞ, Böyük Britaniya və sair dövlət başçılarının siyasi çıxışlarını, debatları, müsahibələri və şərhləri əhatə edən, bütövlükdə 58 müxtəlif nitqlərin təhlili həyata keçirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Siyasi diskurs kommunikativ məqsəd, praqmatik niyyət, arqumentativ məzmun və dialogizm ilə xarakterizə olunan sosial qarşılıqlı əlaqə kontekstində kommunikantlar arasında baş tutan məqsədyönlü və planlı verbal prosesdir.

2. Siyasi dilin əhəmiyyəti onun yalnız siyasi kommunikasiyaya xidmət etməsi ilə məhdudlaşmır – siyasi fəaliyyətlə dilin fəaliyyəti arasında üzvi bağlılıq mövcuddur. Dilin son dərəcə təsirli bir inandırma, siyasi nəzarət vasitəsi olması və siyasi kommunikasiyanın əsasını təşkil etməsi hər bir dövlətin öz quruluşuna, daxili və xarici siyasətinə müvafiq dil siyasətinə malik olmasını labüd edir.

3. Siyasi-linqvistik tədqiqat metodunun ehtiva etdiyi proqnostik modellər, siyasi fəaliyyətin strategiya və taktikalarının tərtib edilməsi üçün siyasi ünsiyyətin və siyasi diskursun öyrənilməsinə yönəlmiş üsullar, yanaşmalar, texnikalar və tədqiqat prosedurları paradiqmalararası inteqrasiya səciyyəsi daşıyır.

4. İntensional kontekstdə linqvistik arqumentasiyanın dolğun təsviri leksik-qrammatik komponentlərin frazafövqi vahidlər və mətn səviyyəsində kompleks semantik-praqmatik təhlili əsasında mümkündür.

5. Arqumentasiya strategiyaları siyasi diskursda əsas tezisin

müdafiəsi zamanı adresatı dünya xəritəsi modelinin tənzimlənməsinə ehtiyac olduğuna inandırmağa yönəlmiş kontekstual-praqmatik propozisiyalardan ibarətdir.

6. Dəyərlərlə bağlı qiymətləndirici propozisiya siyasi diskursda arqumentasiya potensialını yüksəldən strategiyadır və arqumentin əsas kontent parametrini ehtiva edir.

7. Siyasi diskursda nəzakətlilik kateqoriyasının göstəricisi olan məsafə strategiyasının əsas verbal inikası qrammatik vasitələrdən ibarətdir.

**8.** Siyasi diskursda konseptuallıq yüksək abstraktlığı ilə fərqlənir. Konseptual sahə mənbə və hədəf sahələrdən ibarətdir və freymlərdən, ssenarilərdən təşkil olunmuş bilik strukturları ilə qarşılıqlı əlaqəyə əsaslanır.

9. Siyasi diskursda arqumentasiyanın linqvoritorik potensialı persuazivlik, suqqestivlik və imperativlik kateqoriyalarının icrasını ehtiva edən konkret linqvistik vahidlər vasitəsilə ifadə edilir.

10. Siyasi diskursda ən çox rast gəlinən linqvistik-manipulyativ təsir vasitələrinin (yanlış arqumentlərin) təsnifat meyarları qarşılıqlı kommunikativ əlaqəyə əsaslanır və informasiyanın şərhinin adresata maksimum təsir göstərən müəyyən səviyyələrini əhatə edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada siyasi diskursda arqumentləşdirmə, linqvistik vasitələrin arqumentasiya strategiyaları funksiyası daşıması, dil və nitq vahidlərinin arqumentləşdirmə potensialı məsələləri Azərbaycan dilçiliyində ilk dəfə geniş tədqiqata cəlb edilir. Bu istiqamətdə mövcud boşluğun doldurulması məqsədilə siyasi diskursda arqumentləşmənin və arqumentasiya strategiyalarının tədqiqi metodologiyasının işlənib hazırlanması zərurətindən çıxış edərək təklif etdiyimiz model siyasi diskursda arqumentasiyanı mikro- və makrolinqvistik müstəvilərdə nəzərdən keçirir və müvafiq olaraq, təhlillər frazafövqi səviyyədə konkret arqumentasiya strategiyasının intensional tətbiqini əhatə edir.

Həmçinin, Azərbaycan dilçiliyində siyasi diskursda arqumentasiyanın modelləşdirilməsində aparıcı linqvoritorik arqumentasiya strategiyaları müəyyənləşdirilərək ilk dəfə sistemli təhlilə cəlb edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri

əhəmiyyəti siyasi diskursda arqumentasiya problemi istiqamətində həyata keçiriləcək gələcək tədqiqatlar üçün nəzəri mənbə olmasından, təqdim edilmiş müddəaların siyasi diskursda arqumentasiyanın diskursiv, koqnitiv-praqmatik və linqvoritorik xüsusiyyətlərini təqdim etməklə yanaşı, arqumentasiya nəzəriyyəsinin və linqvopolitologiyanın müddəalarını inkişaf etdirməkdən ibarətdir.

Tədqiqatın praktiki əhəmiyyəti əldə edilmiş nəticələrdən siyasi diskurs, siyasi ritorika, arqumentasiya nəzəriyyəsi, linqvopolitologiya və siyasi kommunikasiya üzrə seçmə fənlərin və kursların tədrisi zamanı, siyasi diskurs və linqvistik arqumentasiya üzrə dərs vəsaitlərinin, dərsliklərin yazılmasında istifadə oluna bilməsi ilə müəyyən edilir. Nəticələrdən siyasi kommunikasiya sahəsinin mütəxəssisləri üçün praktik tövsiyələrin hazırlanmasında da istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin yerinə yetirilməsi zamanı əldə edilmiş əsas nəticələr müəllifin respublika və beynəlxalq elmi konfranslarda təqdim etdiyi məruzələrində, həmçinin Azərbaycanda və onun hüdudlarından kənarda nüfuzlu elmi jurnallarda çap olunmuş məqalələrində və tezislərində əks olunmuşdur. Əldə olunmuş nəticələr linqvistik arqumentasiya, siyasi diskurs təhlili, siyasi ritorika, ritorik arqumentasiya və sair fənlərin tədrisi prosesində tətbiq edilə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi Giriş, 4 Fəsil, Nəticə, İstifadə edilmiş ədəbiyyat siyahısı və dissertasiya işində istifadə edilmiş terminlərin siyahısı və izahı bölmələrindən ibarətdir. Giriş 8 səhifə, 14676 işarə, I fəsil 51 səhifə, 100108 işarə, II fəsil 53 səhifə, 99881 işarə, III fəsil 59 səhifə, 111209 işarə, IV fəsil 80 səhifə, 151825 işarə, Nəticə 4 səhifə, 6571 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 484271 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsinə nəzər salınmış, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar irəli sürülmüş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin **"Siyasi dilçilik paradiqması"** adlanan I fəsli dörd paraqrafdan ibarətdir.

***"Siyasi diskurs linqvistik tədqiqat obyekti kimi"*** adlı I paraqrafda, əsasən, siyasətlə dil arasındakı əlaqələr təsvir edilir, siyasi diskursun hər iki elm sahəsinin tədqiqat obyekti olduğundan bəhs edilir.

Siyasi tədqiqatların obyekti siyasi səciyyə daşıyan sosial institutlardan və münasibətlərdən ibarət ola bilər. Bu nüans hibrid elm sahələrinin yaranmasını labüd edir. Beləliklə, siyasi biliklərin izlərini daşıyan yalnız humanitar deyil, həmçinin, müxtəlif elm sahələrinin geniş spektri formalaşır. Bu xassə siyasətə siyasi obyektlər qrupuna malik, müxtəlif elmlərin çulğalaşmasından ibarət olan "meqa elm" və bütövlükdə "siyasi elmlər sistemi" konseptini formalaşdıran elm statusunu qazandırır.

Siyasət ilə ayrı-ayrı sosial sahələr arasındakı əlaqələr müvafiq olaraq siyasi iqtisadiyyat, siyasi-hüquq, siyasi etika və s. elmlər tərəfindən araşdırılır. Ayrı-ayrı ictimai hadisələr (dil, KİV, reklam və s.) ilə siyasət arasındakı əlaqələr isə siyasi dilçilik, siyasi media, siyasi informatika və s. kimi bir sıra daha məhdud sahələrin yaranmasına səbəb olmuşdur.

Cəmiyyətdə bir sosial qrupun digəri üzərində dominantlığı qarşılıqlı razılaşma, ideoloji mənsubiyyət və yaxud dil vasitəsilə gerçəkləşir. Diskursiv-linqvistik səciyyəyə malik olması siyasi fəaliyyətin həyata keçirilməsinin əsas şərtlərindən biridir: *"Siyasət, müəyyən mənada, əsasən dilin köməyi ilə həyata keçirilən insan münasibətləri sistemidir. Bu səbəbdən siyasət dilini öyrənmədən*

*siyasət elmi mövcud deyil və ola da bilməz"*[1]. Bu xassə siyasət dilinin sadəcə siyasi fakt və hadisələrin təsviri vasitəsi olmayıb, həmin fakt və hadisələrin mənalarını formalaşdıran diskursun elementi olmasından qaynaqlanır. Bu baxımdan, müasir politologiyada dili yalnız siyasi reallığı əks etdirən vasitə kimi deyil, həmçinin, siyasətin qurulması üsulu kimi şərh etmək meyilləri mövcuddur[2]. Hətta bir sıra tədqiqatçılar *"ümumiyyətlə siyasi fəaliyyət linqvistik fəaliyyətdən keçir"* prinsipini qəbul edir[3].

Nitq aktının qeyd edilən bütün xüsusiyyətləri siyasi diskursda öz əksini tapsa da, siyasi diskursun əsasında xüsusi institut formalaşmışdır. Diskursun bu növü özünəməxsus səciyyəyə malikdir – onun başlıca vəzifəsi resipiyentə təsir etmək, onu adresantın mövqeyinə və söyləmin doğruluğuna inandırmaqdan ibarətdir[4]. Dil ictimai münasibətlərin ayrılmaz hissəsi olan diskurs şəklində mövcuddur – bir tərəfdən diskurs bu münasibətləri formalaşdırır, digər tərəfdən isə özü onlar vasitəsilə formalaşır[5].

Tədqiqat işinin həllinə yönəlmiş olduğu məlum problemə əsasən isə diskursu vahid ideyaya malik mətn ilə sosial kontekstin birliyi kimi təsbit etmək olar. Başqa sözlə, diskurs "indi və burada" praqmatik formuluna əsaslanan və mövcud sosial kontekstdə ifadə edilən nitqdir. Bununla da diskursun obyekti yalnız mətni deyil,

---

[1] Гаджиев, К.С. Политическая философия / К.Гаджиев. – Москва: ОАО Издательство «Экономика», – 1999. – с.550

[2] Johnson, J.B. Political science research methods. / J.B.Johnson, H.T.Reynolds, J.D.Mycoff. – CQ Press; 9th edition, – 2019. – 400 p.; Joseph, J.E. Language and Politics. / J.E.Joseph. – Edinburgh University Press, – 2006. – 181 p.

[3] Шейгал, Е.И. Семиотика политического дискурса: /дисс. доктора филол.наук/ – Волгоград, 2000. – с.27

[4] Eyyubov, A. Diplomatiyanın əsasları / A.Eyyubov. – Bakı: İqtisad Universiteti, – 2010. – 86 s.; Əfəndiyev, M. Siyasi elm / M.Əfəndiyev. – Bakı: Siyasət, – 2010. – 859 s.; Əhmədli, C.T. Cəmiyyət-siyasət-ideologiya: siyasi biliklərin əsasları / C.Əhmədli. – Bakı: "İnam" plüralizm mərkəzi, – 1997. – 538 s.; İsgəndərzadə, M. Politologiyanın əsasları / M.İsgəndərzadə. – Bakı: Kitab Klubu, – 2012. – 152 s.; Kissincer, H. Diplomatiya / H.Kissincer. – Bakı: Qanun, – 2015. – 783 s.; Məmmədov, A. Siyasi liderlərin psixoloji portretləri / A.Məmmədov. – Bakı: "Mono-Qrup" NPM, – 2019. – 250 s.

[5] Allahverdiyeva, A.M. Characteristics and functions of political discourse // – Science and Beyond Publishing UK Ltd., British journal for social and economic research, – 2018. Vol. 3, Issue 2, – p.31-35

həmçinin ekstralinqvistik faktorları (dünya haqqında biliklər, nöqteyi-nəzərlər, məqsədlər, sosial təcrübələr, kommunikantların həyat tərzi və s.) ehtiva edir[6]. T.van Deykə əsasən, məhz bu faktorlar mətnin dərkinin təminatıdır[7]. Qeyd edilən və edilməyən yanaşmalar "Siyasi diskurs nəzəriyyəsi"nin formalaşmasını şərtləndirmişdir.

Bu nəzəriyyənin təşəkkül tapmasında siyasi kommunikasiya, hermenevtika, sosiologiya, semiotika sahəsində alimlərin əsərləri ilə yanaşı, siyasi diskussiyalar da böyük rol oynamışdır. T.van Deyk, D.Houard, P.Burdye, Q.Lassuell, F.Uebster, M.Maklyuen, Y.Habermas və başqalarının bu barədə əsərlərində sosial-siyasi münasibətlər siyasi dialoq kontekstində təhlil edilir[8].

Beləliklə, linqvistik kateqoriya kimi diskurs mürəkkəb və çoxşaxəli tədqiqat obyektidir. Diskursun nitq vasitəsilə ünsiyyətlə mətn arasında aralıq mövqeyə malik linqvistik davranışdan ibarət olması onun mürəkkəb xassə əldə etməsinə vəsilə olur. Ayrıca diskurs növü olan siyasi diskurs isə professional siyasətçi tərəfindən sosial-institusional mühitdə gerçəkləşir. Başqa sözlə, siyasi diskurs yalnız siyasi şəraitdə müəyyən siyasi aktı müşayiət edən kommunikasiya prosesində "siyasi" adlana bilər.

***"Siyasət dili və siyasi dil dixotomiyası"*** başlıqlı ikinci

---

[6] Abdullayev, Ə.Ə. Mətni anlama modelləri / Ə.Abdullayev. – Bakı: Səda, –1999. –344 s.; Abdullayev, Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Abdullayev. – Bakı: Zərdabi LTD MMC, – 2011. – 272 s.

[7] Дейк, Т.А. ван. Язык. Познание. Коммуникация / Т.Дейк. – Москва: Прогресс, – 1989. – 312 с.

[8] Дейк, Т.А. ван. Язык. Познание. Коммуникация / Т.Дейк. – Москва: Прогресс, – 1989. – 312 с.; Bourdieu, P. Language and Symbolic Power. / P.Bourdieu. Trans. Gino Raymond and Matthew Adamson. – Cambridge: Polity Press. – 1991. – 303 p.; Howarth, D. Discourse Theory in European Politics. Identity, Policy and Governance, G.B./ D.Howarth. – Palgrave Macmillan, – 2005. 381 p.; Lasswell, H.D. The Structure and Function of Communication in Society // The communication of ideas. – New York: Harper and Row. – 1948. – p.37-51; Уэбстер, Ф. Теории информационного общества / Ф.Уэбстер. Пер. с англ. М.В.Арапова, Н.В.Малыхиной. – Москва: Аспект Пресс, – 2004. – 400 с.; Маклюэн, М. Понимание Медиа: Внешние расширения человека / Пер. с англ. В.Николаева. – М.; Жуковский: «КАНОН-пресс-Ц», 2003. – 464 с.; Habermas, J. Theorie des kommunikativen Handelns (TKH), Bd.1: Handlungsrationalität und gesellschaftliche Rationalisierung, Bd. 2: Zur Kritik der funktionalistischen Vernunft. J.Habermas. – Frankfurt/M., – 1981. – 533+632 S.

paraqrafda "siyasət dili" ilə "siyasi dil" anlayışları qarşılaşdırılır və onların fərqli mənalara malik olduğu qənaəti hasil edilir.

Siyasi dilçiliyin tədqiqat obyekti siyasi kommunikasiyadan, məqsədi isə kommunikasiya vasitələrini, siyasi subyektlərlə siyasi vəziyyət arasındakı linqvistik və ekstralinqvistik münasibətləri araşdırmaqdan ibarətdir. Müasir siyasi dilçilik ümumi siyasi kommunikasiya məsələləri ilə yanaşı siyasi nitq janrları (lozunqlar, günün siyasi məsələsinə dair çap olunmuş vərəqələr, proqramlar, qəzet məqalələri, mitinqlərdə çıxışlar, parlament polemikaları, debatlar və s.) problemini və siyasi mətnlərin funksional xüsusiyyətlərini tədqiq edir.

Siyasi diskurs dil ilə güc arasındakı üzvi əlaqənin təzahürüdür [9] – dil yalnız siyasi kommunikasiyanı xarakterizə etməyərək, onun tərkib hissəsi qismində çıxış edir: "*Biz özümüzü başqalarına, həmçinin dil seçimimiz və dil müxtəlifliyi vasitəsilə təqdim edirik. Dil seçimi və dilin özü insan şəxsiyyətinin (fərdi və yaxud kollektiv) quruluşunun tərkib elementidir və bu, 1970-ci illərdən bu günədək həyata keçirilmiş sosiolinqvistik tədqiqatlarda sübut və dəlillər vasitəsilə geniş şəkildə öz əksini tapmışdır*"[10]. Dilin son dərəcə təsirli bir inandırma, nəzarət vasitəsi olması və siyasi kommunikasiyanın əsasını təşkil etməsi hər bir dövlətin öz quruluşuna, daxili və xarici siyasətinə müvafiq dil siyasətinə malik olmasını labüd edir. Ancaq bu dilin siyasət dilindən, yaxud siyasi dildən ibarət olması məsələsi hələ də müzakirə obyekti olaraq qalmaqdadır.

Siyasət dili siyasətçilərin öz peşəkar fəaliyyətlərini yerinə yetirdikləri zaman istifadə etdikləri siyasi terminologiyanı və ritorikanı əhatə edir. Siyasi dil isə cəmiyyətin bütün üzvləri üçün əlçatan kommunikasiya resursudur və siyasi kommunikasiya zamanı

---

[9] Fowler, R. Language and control. / R.Fowler, B.Hodge, G.Kress: [et al]. 1st edition. – London: Routledge & Kegan Paul. – 1979. – 232 p.; Lasswell, H.D. The Structure and Function of Communication in Society // The communication of ideas. New York: Harper and Row. – 1948. – p.37-51; Lasswell, H.D. The Language of Power /H.D.Lasswell //Language of Politics: Studies in Quantitative Semantics. – N.Y., – 1949. – p.20-39.

[10] Wodak, R. Language, power and identity: [Electronic resource] // Language teaching, – 2012, 45(02). Lancaster University. URL: https:// www.researchgate.net/publication/259419190_Language_power_and_identity

ümumxalq dilindən xüsusi məqsədlərlə (inandırmaq, idarə etmək, manipulyasiya etmək) istifadəni nəzərdə tutur. Bəzi dilçilər siyasət dilini ayrıca bir dil kimi qəbul edirlər: *"Siyasət dilinin mövcudluğunu inkar etmək əsassızdır və onu alt dillərdən – milli dilin variantlarından biri kimi qəbul etmək gərəkdir"*[11]. Yaxud R.Uodak siyasi dilin çoxfunksiyalı xassəyə malik olduğunu qeyd edir: *"Siyasi dil iki qütbün – funksional-şərti səciyyə daşıyan xüsusi dil ilə müəyyən qrupun ideologiyasını əks etdirən jarqonun arasında yer alır. Bu səbəbdən siyasi dil müəyyən qrupa ünvanlanmalıdır (tarixi və sosial-psixoloji səbəblərdən irəli gələrək) və onun üçün dərkedilən (təbliğati məqsədlərdən irəli gələrək) olmalıdır"*[12]. Siyasi dilin bu sosial-üslubi rəngarəngliyi onun çoxfunksiyalılığından irəli gəlir.

Siyasi dilin əsasən praqmatik əhəmiyyətinə diqqət yetirən tədqiqatçılar onun siyasi kommunikasiya prosesində oynadığı funksional rolunu xüsusi vurğulayırlar. Müvafiq olaraq, siyasi dilin ideyaların təbliğatı, auditoriyaya emosional təsir etmək və onları sonrakı fəaliyyətlərinə meyilləndirmək, ictimai konsensus əldə etmək kimi funksiyaları fərqləndirilir[13]. Bunlarla bərabər, siyasi dilin əhəmiyyəti onun yalnız siyasi kommunikasiyaya xidmət etməsi ilə məhdudlaşmır, çünki siyasi fəaliyyət dilin fəaliyyəti ilə bağlıdır.

Siyasi diskursda adresatın kütləvilik səciyyəsi bu sahədə istifadə edilən siyasi dilin kodlaşdırılmış dil xüsusiyyətlərindən məhrum olmasına səbəb olur. Digər professional jarqonlardan fərqli olaraq, siyasi sosiolekt digər sosiolekt daşıyıcıları üçün naməlum olan xüsusi leksika ehtiva etmir və bu xassə siyasi dilin əsasını təşkil edir. Bu dil ümumxalq dilindən inandırma və idarəetmə vasitəsi kimi, bəzən isə manipulyativ məqsədlərlə istifadəni inikas etdirir. Bunlardan başqa, siyasi kommunikasiyanın kütləviliyi, nəticə etibarilə, informasiyanın müxtəsər səciyyə əldə etməsinə vəsilə olur.

Siyasi diskursun adresata təsir göstərməkdən ibarət olan əsas

---

[11] Шейгал, Е.И. Семиотика политического дискурса / Е.Шейгал. – М.: ИТДГК «Гнозис», – 2004. – с.20

[12] Водак, Р. Язык. Дискурс. Политика / Р.Водак. – Волгоград: Перемена, – 1997. – с.24

[13] Allahverdiyeva, A.M. Siyasi diskursu şərtləndirən linqvistik və ekstralinqvistik faktorlar // Bakı II Beynəlxalq Elm Konfransı, – Bakı, Azərbaycan: – 1 aprel, – 2018, – s.129-131

məqsədinə xidmət edən adresant niyyətlərinin sırasına referentin məqsədyönlü interpretasiyası, nəzərdə tutulan konsepsiyanın auditoriyanın təfəkküründə mühafizəsinin təmin edilməsi, informasiyanın irrasional dərkinə nail olunması və hədəfin davranış stereotiplərinin dəyişdirilməsi kimi praqmatik niyyətlər daxildir. Qeyd edilənlər, əsasən, məlumatın emosional dərkinə vəsilə olan və siyasi diskurs üçün səciyyəvi olan ritorik-linqvistik kateqoriyaların (informativlik, arqumentasiya, dialogizm, ifadəlilik, konseptual dəqiqlik, kontekstuallıq) tətbiqi hesabına gerçəkləşir.

Beləliklə, siyasi dil ilə siyasət dilinin qeyd edilən ümumi və fərqli xüsusiyyətlərini ümumiləşdirərək onların siyasi diskursda inikasının aşağıdakı konstruktiv elementlərdən ibarət olduğu qənaətini hasil edirik:

– adresat kütləviliyi;
– emotivlik amilinin dominantlığı;
– semantik neytrallıq (periferiklik);
– siyasi ünsiyyətin KİV-də inikası;
– realilərin verbal ünsiyyətdə əksi;
– situasiyanın dəyişkənliyi səbəbindən siyasət dilinin dinamik səciyyə daşıması.

***"Siyasi dilçilikdə tədqiqat metodları"*** adlı üçüncü paraqrafda siyasi-linqvistik tədqiqat metodunun proqnostik modellərin, siyasi fəaliyyətin strategiya və taktikalarının tərtib edilməsi üçün siyasi ünsiyyətin və siyasi diskursun öyrənilməsinə yönəlmiş metodların, yanaşmaların, texnikaların və tədqiqat prosedurlarının paradiqmalararası inteqrasiya səciyyəsi daşıması və aşağıdakı vəzifələrin həyata keçirilməsi zamanı tətbiq olunduğu qeyd edilir:

– dil və ideologiya, dil və siyasət arasındakı əlaqələri həm retrospektiv, həm proqressiv aspektlərdən araşdırmaq;

– siyasi kommunikasiya anlayışını və onun xüsusiyyətlərini təfsir etmək;

– siyasi diskurs anlayışının şərhini vermək, ümumi və spesifik xüsusiyyətlərini aşkar etmək, onun əsas təşkili vasitələrini təqdim etmək və diskurs mühitinin qurulmasında onların rolunu müəyyənləşdirmək;

– siyasi diskursun strukturunun və linqvistik xüsusiyyətlərinin

ifadə üsuluna və resipiyentə təsirinin xarakterini müəyyən etmək;

– “güc”, “təsir”, “səlahiyyət” və “siyasət” kimi anlayışlarla siyasi diskursun xassələri arasındakı əlaqələri təfsir etmək;

– auditoriyaya təsir etmək məqsədilə istifadə edilən dil vasitələrini müəyyənləşdirmək;

– dil kimliyinin bu vasitələrdən istifadə etməklə yerinə yetirəcəyi vəzifələri aşkar etmək;

– siyasətçinin natiqlik imicinin formalaşması prosesini təhlil etmək;

– müxtəlif siyasi davranış tendensiyalarının qiymətləndirilməsi məqsədilə KİV vasitələrinin monitorinqini həyata keçirmək;

– politoloji proqnostik modellər tərtib etmək;

– optimal siyasi fəaliyyət strategiya və taktikalarını təqdim etməklə siyasi kommunikasiyanı manipulyasiyadan azad etmək.

Siyasi dilçiliyə retrospektiv prizmadan nəzər saldıqda, onun formalaşması prosesinin bir neçə əsas istiqamətdə həyata keçdiyinin şahidi oluruq. Onların hər biri müəyyən mərhələdə siyasi dilçiliyin inkişafını zənginləşdirən müəyyən metodoloji yanaşmalara əsaslanır:

– aparılan təbliğatın kontent təhlil metoduna əsaslanan kvantitativ semantik tədqiqi;

– ənənəvi evristik və innovativ ritorik metodlar vasitəsilə siyasətçilərin natiqlik bacarıqlarının qiymətləndirilməsi;

– siyasi liderlərin idiolektlərinin psixolinqvistik metod əsasında təhlili;

– siyasi publisistikada ictimai şüurun semantik manipulyasiya vasitəsilə idarə edilməsinin öyrənilməsi;

– siyasi rəmzlərin semiotik araşdırılması;

– diskurs təhlili metodu vasitəsilə ekstralinqvistik faktorlar nəzərə alınmaqla siyasi kommunikasiyanın tədqiqi;

– siyasi kommunikasiya prosesində idrak strukturlarının modelləşdirilməsi üsullarının təhlili.

Linqvopolitologiyanın müasir mərhələsində müxtəlif metod və üsulların mövcudluğu şəraitində diskurs təhlili dominant tədqiqat metoduna çevrilmişdir və siyasi diskurs ümumiləşdirilmiş (ortaq) obyekt statusu əldə etmişdir. Digər dilçilik paradiqmalarından fərqli olaraq linqvopolitologiya ayrıca elm sahəsi kimi güclü evristik

potensiala malikdir[14]. Bu potensialın əsasını geniş tətbiq edilmiş tədqiqat metodları olan kontent-təhlil, koqnitiv model (xəritə), siyasi dilçilik metodologiyası və metodları (koqnitiv metodlar, ritorik texnikalar), diskursiv metodlar (tənqidi diskurs təhlili, diskursun qurulması metodları, təsviri diskurs təhlilinin kompleks metodikası (neyrokoqnitiv, psixolinqvistik, siyasi-sosioloji, müqayisəli, tipoloji və s.)), siyasi metaforologiya metodları, siyasi diskurs təhlili, siyasi dilin öyrənilməsi üsulları, siyasi kommunikasiyanın polikod fenomenlərinin təhlili metodikası təşkil edir. Onların arasından tənqidi diskurs təhlili dili sosial kontekstlə əlaqələndirən linqvistik-ritorik təhlili və sosial nəzəriyyəni özündə birləşdirən elmlərarası sahə hesab edilir: *"O, diskurs və cəmiyyət, kontekst, dil və hakimiyyət arasındakı əlaqələri aşkar edir"*[15]. Beləliklə, müasir dilçilikdə "siyasət dili" problemi siyasi diskurs tədqiqatları kontekstində nəzərdən keçirilir.

Bununla yanaşı, elmi ədəbiyyatlarda fərqli yanaşma nümayiş etdirərək siyasi diskursun, əsasən, eksplisit praqmatikliyə, qiymətləndirmə və aqonallıq xassələrinə malik olduğunu qeyd edən mənbələrə də təsadüf etmək mümkündür[16]. E.Şeyqal məhz bu cür yanaşma nümayiş etdirərək siyasi diskursun kompleks təhlilini təqdim etmişdir və onun öyrənilməsində üç əsas diskursiv yanaşmanın mövcud olduğunu göstərmişdir [17]:

1) təsviri – siyasətçilərin linqvistik davranışlarının ritorik təhlili;

2) tənqidi – diskursda sosial bərabərsizliyin təhlili;

---

[14] McNabb, David E. Research Methods for Political Science. Quantitative and Qualitative Methods. / Nabb Mc, E.David. – New York: Routledge, – 2016. – 448 p.

[15] Аллахвердиева, А.М. Особенности политического дискурса Терезы Мэй // – Москва: Гуманитарные науки. Вестник МГЛУ, – 2019. № 6 (822), – с.173.

[16] Карасик, В.И. Языковой круг: личность, концепты, дискурс / В.Карасик. – Волгоград: Перемена, – 2002. – 477 с.; Романов, А.А. Политическая лингвистика: Функциональный подход / А. Романов. – Москва–Тверь: ИЯ РАН, ТвГУ, – 2002. – 191 с.; Сорокин, Ю.А. Политический дискурс: попытка истолкования понятия // Политический дискурс в России: Материалы рабочего совещания, – Москва, – 30 марта, – 1997, – с.57–62.

[17] Шейгал, Е.И. Семиотика политического дискурса: /дисс. доктора филол.наук/ – Волгоград, 2000. –с.11

3) koqnitiv – siyasi diskurs çərçivəsində konseptual freymlərin təhlili.

Siyasət dilinin tədqiqi siyasi diskurs, siyasi təfəkkür, siyasi diskursun siyasi davranışla əlaqəsi, gələcəkdən xəbər verən siyasi proqnoz modellərinin yaradılması zərurəti, ictimai şüurda müxtəlif ənənələrin monitorinqini aparmaq və s. kimi bir sıra problemlərin həlli üçün siyasi və kütləvi informasiya mətnlərinin təhlili metodlarının işlənib hazırlanması fonunda həyata keçirilir. Bu istiqamətdə həyata keçirilmiş tədqiqatlara nəzər saldıqda müasir metodlardan, əsasən, kontent-təhlili, koqnitiv yanaşma, ideoloji təhlil və təsviri metodlara müraciət olunduğunun şahidi oluruq.

Göstərilən metodların tətbiqi mexanizmləri bu qənaəti hasil etməyə əsas verir ki, siyasi diskurs siyasi ünsiyyət qanunlarına uyğun olaraq təşkil edilmiş və müəyyən siyasi situasiya ilə şərtlənən xüsusi kommunikasiya növüdür. Siyasi diskursun effektiv, yaxud qeyri-effektiv səciyyəyə malik olmasının müəyyənləşdirilməsi məhz həmin kriteriyaların əsasında lazımi tədqiqat metodunun seçilməsi və tətbiqi vasitəsilə mümkündür.

I fəslin dördüncü paraqrafı ***"Siyasi diskurs və institusionallıq"*** adlanır və siyasi diskursun cəmiyyətin həyatında xüsusi sosial əhəmiyyətə malik olan institusional fenomen olmasından bəhs edir.

V.Gerasimov və M.İlyin institusional fəaliyyətin sosial məqsədyönlü xassə ehtiva etdiyini qeyd edir: *"Cəmiyyətin həyatında müəyyən sosial institutlar üçün xüsusi əhəmiyyətə malik bəzi sahələrə münasibətdə həmin institutlar məqbul, yaxud qeyri-məqbul hesab edilə biləcək müəyyənləşdirici, təsviri və məhdudlaşdırıcı tələbləri yaradacaq və dəstəkləyəcək"*[18]. Bu institutlar insanın davranışlarının, eləcə də ünsiyyət zamanı nitq davranışlarının müəyyən qaydalara tabe olmasını şərtləndirir və onları reqlamentə salır. İnstitusional səviyyədə nitq aktının əsas funksiyası ünsiyyətdən ibarət olduğu üçün[19], onun kommunikativ strukturunu təşkil edən tərkib hissələri

---

[18] Герасимов, В., Ильин, М. Политический дискурс-анализ / В.Герасимов, М.Ильин, – Москва; Политический дискурс: История и современные исследования: Сборник научных трудов /РАН ИНИОН. – Москва, – 2002. – с.64

[19] Шейгал, Е.И. Семиотика политического дискурса: /дисс. доктора филол.наук/ – Волгоград, 2000. –с.57

məhz akt iştirakçılarının diskursiv fəaliyyətinin gedişatında müəyyənləşir. İnstitusionallıq xassəsi akt iştirakçılarının bir-biri ilə ünsiyyətini təmin etmək məqsədilə siyasi diskursun kodlaşdırılmış sistem şəklində qurulmasını tələb edir.

Siyasi diskurs institusional diskursun şəkillərindən biridir və statusyönümlü ünsiyyət formasıdır – kommunikantlar fərdi deyil, müəyyən sosial statusun daşıyıcıları obrazında çıxış edirlər. Bu zaman digər diskurs növlərinin funksiyaları ilə çarpazlaşma baş verir və nəticə etibarilə, eyni mətn daxilində müxtəlif diskurs növlərinin bir-birinə qarşılıqlı keçidi baş verir. Məsələn, fərdin siyasi sosiallaşması prosesində siyasi diskurs pedaqoji diskursla kəsişir. Yaxud, reklam diskursu ilə siyasi diskurs arasında mövcud olan qarşılıqlı münasibətlər hər iki növün ümumi məqsədə xidmət etməsindən – fəaliyyətə sövq edən motivasiya barəsində məlumatlandırma vasitəsilə potensial "istehlakçı"ya təsir göstərməkdən qaynaqlanır. Siyasi diskurs, həmçinin, idman diskursu ilə kəsişir – hər iki diskursda mübarizə, bəzən isə çəkişmə məqamları mövcuddur. A.Zilbertə əsasən, siyasi diskursla idman diskursunu birləşdirən əsas cəhət qalib olmaq üçün mübarizədən ibarət olsa da, *"idman diskursu funksional baxımdan aqonallıq ehtiva edən siyasi və hərbi diskurslardan fərqlənir"*[20]. Müvafiq olaraq, idman və müharibə metaforlarının siyasi metaforlar korpusunda əhəmiyyətli yer tutur. Məsələn, Azərbaycan dilində: *oyuna mərkəzdən başlamaq, ağır çəkililərin mübarizəsi, meydanda tək qalmaq, həlledici zərbə*; rus dilində: *оказаться вне игры, вести двойную игру, доиграться до санкций;* ingilis dilində: *game-changer, playing the man not the ball, knock-out punch, to punch above weight, to score an own goal* və s.

Siyasi diskurs üçün səciyyəvi olan rituallıq xassəsi onunla bədii diskursun əlaqələnməsinə də səbəb olmuşdur. Memuarlar, sənədli nəsr əsərləri, ironik poeziya nümunələri, həcvlər, bəzi folklar janrları (lətifələr, atalar sözləri və zərb-məsəllər, bayatılar), təsviri və ifaçılıq sənətinə aid kreolizə edilmiş mətn növləri (plakatlar, karikaturlar, teleparodiyalar, kinofilmlər) siyasi diskursla çarpazlaşır. Bədii

[20] Зильберт, А.Б. Спортивный дискурс: **точки** пересечения с другими дискурсами. // – Москва: Язык, сознание, коммуникация, – 2001. Вып.19, – с.102

diskursun əsas funksiyası özünüifadədən ibarət olmasa belə, siyasi sahə ilə kəsişən adları qeyd edilən bədii diskurs janrları bəzən siyasi mesaj səciyyəsi daşıya bilər. Bu zaman məqsəd hakim ideologiyanın maraqları naminə dünya xəritəsinin xəyali variantının formalaşdırılmasından, mövcud stereotiplərin təsdiq və ya inkar edilməsindən, ictimai-siyasi miflərin, tənqidi təfəkkürün formalaşdırılması və ifşa edilməsindən, keçmişin bugünkü prizmadan şərhindən ibarətdir.

Məlum olduğu kimi, hər bir dövlətin siyasətinin əsasında həmin dövlətin iqtisadi kursu durur. Bundan irəli gələrək siyasi diskurs çərçivəsində iqtisadi diskursun təhlili həyata keçirilir. Hər iki sferaya məxsus olan "böhran", "devalvasiya" və "islahatlar" kimi aralıq mövzular buna bariz nümunədir. Bundan başqa, iqtisadi realilərin təsvirini və ya səciyyələndirilməsini yerinə yetirən nitq aktları ehtiva etdiyindən, müasir siyasi kommunikasiyanı onlarsız tamamlanmış hesab etmək mümkün deyil.

Öz fövqəladə gücünü qəbul etdirmək məqsədilə manipulyativ vasitələrdən istifadə edən lider məhz dini və siyasi diskursların kəsişməsi nəticəsində söz magiyasının yardımı ilə idrakın mifikləşdirilməsinə və ünsiyyətin rituallaşdırılmasına nail olur.

Ətraf aləmin dərki prosesində, eləcə də polemikalar zamanı öz nöqteyi-nəzərini müdafiə etmək elmi diskurs üçün də səciyyəvidir.

Dövlətlərin həm xarici, həm də daxili siyasətinin məqsəd və vəzifələrinin həyata keçirilməsinə vəsilə olması siyasi diskursu diplomatik diskursla da çarpazlaşdırır.

Həmçinin, siyasi diskurs hüquqi diskursla dövlət qanunvericiliyi sahəsində, məsələn, siyasi motivli məhkəmə prosesləri zamanı çulğalaşır.

Beləliklə, siyasi diskurs digər janrlarla çulğalaşaraq onlara mənsub bir sıra cəhətləri əxz etsə də, onun hakimiyyətin tənzimlənməsindən ibarət olan əsas vəzifəsi dəyişməz olaraq qalır.

Dissertasiyanın **"Siyasi diskursun kompozisional-konseptual tərkibi"** başlıqlı II fəsli 3 paraqrafdan ibarətdir.

Birinci paraqraf ***"Siyasi diskursun kommunikativ strukturu"*** adlanır və burada siyasi diskurs vasitəsilə geniş kütlələrə təsirin yalnız leksik-qrammatik vahidlərin seçimi və ya cümlələrin və

abzasların strukturu səviyyəsində deyil, həmçinin nitqlərin quruluşu, yəni kompozisiyası səviyyəsində reallaşdığı qeyd edilir.

Klassik nitq kompozisiyasının giriş, əsas hissə və nəticə komponentləri ehtiva etdiyi məlumdur (N.Koxtev, E.Klyuev, N.Koxtev, M.Edelmən, J.Baqana, E.Boçarova və b.). Ancaq, nitqin məqsədindən və natiqin niyyətindən asılı olaraq, bu kompozisiya dəyişikliklərə məruz qala bilər. Bu paraqrafda siyasi diskursun ayrıca janrı olan seçkiqabağı nitqlərin kommunikativ-kompozisional təhlili həyata keçirilir.

N.Koxtev seçkiqabağı nitqin əsaslandırılmış və nizamlı məzmununu, bütün tərkib hissələrinin yerləşməsini və düzülüşünü, onların əlaqəsini, habelə sistemli təşkilini və yerləşdirilməsini nəzərdə tutan kompozisiyası ilə seçildiyini qeyd edir[21]. Beləliklə, siyasətçinin kommunikativ fərdiyyətini üzə çıxaran nitq aktlarının və kommunikativ əməliyyatların ardıcıllığı, həmçinin nitqin kompozisiyası seçkiqabağı diskursun fərdi-üslubi qeyri-həmcinsliyini (idiolekti) təmin edən cəhətlər şəklində təzahür edir. O.Qaykovanın da vurğuladığı kimi, seçkiqabağı nitqin hər bir komponentinin spesifik institusional funksiyalar (məlumatlandırma, təbliğat, ruhlandırma, təsiretmə) yerinə yetirir[22]. Təhlillər seçkiqabağı nitqlərin kompozisiyasının giriş, müqəddimə, əsas hissə və nəticə komponentlərindən ibarət olduğunu göstərdi.

Kommunikativ müstəvidə siyasi nitqlərin əsas hissəsi müxtəlif tematik bloklardan ibarət olur. Bu blokların düzülüşü üsulundan asılı olaraq seçkiqabağı siyasi nitqlərin kommunikativ strukturunun aşağıdakı növlərini fərqləndirmək olar:

– Konsentrik formada əsas ideya nitqin əvvəlində ümumi şəkildə təqdim edilir. Bu ideya nitq prosesində əsaslandırılır, konkretləşdirilir, arqumentlərlə və faktlarla zənginləşdirilir. Yekun hissədə əsas fikir bir daha vurğulanır və təsdiqlənir.

– İyerarxik növ tematik blokların bir-birinə münasibətdə xətti

---

[21] Кохтев, Н. Основы ораторской речи / Н.Кохтев. – Москва: Изд-во МГУ, – 1992. – 240 с.

[22] Гайкова, О.В. Предвыборный дискурс как жанр политической коммуникации (на материале английского языка): / дисс. канд. филол. наук / – Волгоград, 2003. – 211 с.

düzülüşü ilə fərqlənir. Burada hər yeni mövzu sonrakı mövzunun təfsiri üçün çıxış nöqtəsi hesab oluna bilər. Bu zaman bir mövzu digər mövzuya keçir, növbəti mövzu əvvəlkini inkişaf etdirir və beləliklə, nitqin kommunikativ məqsədini müəyyən edən əsas ideyanın aşkar edilməsinə vəsilə olur.

– Paralel şəkil eyni anda vahid ideya ətrafında birləşən bir neçə tematik blokun mövcudluğunu nəzərdə tutur. Burada, hətta bloklar arasında gözlənilməz keçidlər də baş verir.

– Qarışıq növ bir neçə tematik blokun paralel, digərlərinin isə iyerarxik əlaqələrə malik olduğu kompozisiya formasıdır.

Qeyd edilmiş hər bir komponentin və blokun, eləcə də onların ehtiva etdiyi linqvistik-ritorik vasitələrin səciyyələndirilməsi məqsədilə 2016-cı ildə ABŞ-da prezident seçkiləri öncəsi namizədlər H.Klinton və D.Tramp arasındakı debatlar və H.Klintonun ayrıca bir çıxışı təhlilə cəlb edilir. Nəticə etibarilə, siyasi diskursun ayrı-ayrı janrlarının müəyyən struktura, o strukturu şərtləndirən funksional xüsusiyyətlərə, habelə natiqin niyyətindən qaynaqlanan kommunikativ kompozisiya elementlərinə malik olduğu aşkar edildi.

Beləliklə, seçkiqabağı siyasi diskursun strukturu etiket formulları toplusundan, mövzuya girişdən, müxtəlif tematik bloklardan ibarət nitqin əsas hissəsindən və yekun hissə kimi bir sıra kompozisiya elementlərinin birləşməsindən təşkil olunur. Bu elementlərin hər biri ayrı-ayrılıqda müəyyən kommunikativ-praqmatik funksiya yerinə yetirir.

II fəslin ***“Siyasi diskursun koqnitiv-praqmatik aspekti”*** başlıqlı ikinci paraqrafında diskursun koqnitiv-praqmatik modelinin kommunikasiya tədqiqatçıları üçün aktual mövzu olduğu qeyd edilir.

Tədqiqatçılar əksər hallarda diskursun koqnitiv modelini bir konkret istiqamətdə araşdırsalar da, “model” termini T.van Deyk tərəfindən biliyin və yaddaşın xüsusi struktur təşkili formasını adlandırmaq üçün istifadə edilmişdir[23]. Tədqiqatçıya əsasən, koqnitiv modelin tərtibatı zamanı yalnız mücərrəd mental biliklər deyil, eyni zamanda real nöqteyi-nəzərlər, arzular, tələblər, niyyətlər, məqsədlər, hiss və emosiyalar nəzərə alınmalıdır. Bu baxımdan, diskursun

---

[23] Дейк, Т.А. ван. Язык. Познание. Коммуникация / Т.Дейк. – Москва: Прогресс, – 1989. – с.68

koqnitiv modelinin mürəkkəb və çoxsəviyyəli xarakterə malik olduğunu qeyd etmək olar. Bu qənaəti, eyni zamanda koqnitiv modeli təşkil edən çoxsaylı komponentlərə, parametrlərə və elmi nəzəriyyələrə əsasən hasil etmək mümkündür.

N.Belozerova və L.Çufistova tərəfindən təklif edilmiş koqnitiv model qeyd edilən bütün xüsusiyyətləri əks etdirir[24]. Həmmüəlliflər koqnitiv modeli müəyyən fenomen haqqındakı təsəvvürə əsaslanmış, çoxsəviyyəli, çoxkomponentli və çoxfunksiyalı mental struktur olaraq təsvir edirlər. Bu mental struktur informasiyanın yaranması və emalı zamanı paradiqmatik, sintaqmatik əlaqələrin və insan beyninin sağ və sol yarımkürələrinin qarşılıqlı təsirinə əsaslanır və informasiyanın assosiativ təsəvvür vasitəsilə hasili prosesidir.

Müxtəlif yanaşmaların nəzərdən keçirilməsi nəticəsində siyasi diskursun koqnitiv modelinin adresant, adresat, söyləm, söyləmin predmeti, kommunikasiya aktının zamanı, kommunikasiya aktının məkanı, kommunikasiya aktının gerçəkləşdiyi situasiya, ictimai münasibətlər, akt iştirakçılarının rolları və dil kimliyi, linqvistik məkanın (mətnin) səciyyəsi kimi konseptual elementlərdən ibarət olduğu qənaəti hasil edilir.

*"Mətndən informasiyanı qəbul edən özündə mətnə qarşı "praqmatik" adlandırdığı müəyyən fərdi münasibətlər formalaşdırır"*[25] fikrini irəli sürən V.Komissarov adresatın mətnə, əsasən şəxsən ona aid olmayan və onun üçün maraqlı olmayan müəyyən hadisə, yaxud fakt haqqında məlumatları əldə etmək məqsədilə müraciət etdikdə qeyd edilən münasibətlərin intellektual səciyyə əldə edə biləcəyini iddia edir. Bundan başqa, məlumatın adresatın hisslərinə təsir etməsi və onun müvafiq emosional reaksiya göstərməsinə səbəb ola bilməsi ilə müşahidə olunan aspektini müəllif "mətnin praqmatik potensialı" adlandırır. Zənnimizcə, kommunikativ effekt yaratmaq, informasiyanı qəbul edəndə həmin informasiyaya qarşı konkret münasibətlər oyatmaq, başqa sözlə, informasiyanı qəbul edənə məqsədyönlü təsiri gerçəkləşdirmək xassəsi siyasi

---

[24] Белозерова, Н. Когнитивные модели дискурса. / Н.Белозерова, Л.Чуфистова, – Тюмень: Изд-во Тюменского гос. ун-та, – 2004. – с.5

[25] Комиссаров, В. Теория перевода / В.Комиссаров. – Москва: Высшая школа, – 2004. – с.209

diskursun praqmatik aspekti, yaxud potensialıdır.

Praqmatika kommunikativ niyyət (illokusiya və intensiya), kommunikativ təsir (perlokusiya), kommunikativ taktikalar, strategiyalar, kommunikantlar arasında rolların bölüşdürülməsi, konvensiyalar, prinsiplər kimi bir sıra konseptlərlə əlaqəlidir. Beləliklə, siyasi diskurs iştirakçılarının rolu məlumatın diskurs prosesində ötürülməsi və qəbulu zamanı praqmatik səciyyə əldə edir.

Siyasi diskursda adresatın niyyəti (kommunikativ intensiyası) söyləmin gerçəkləşməsinə qədər təzahür edir və diskursun strategiyasını (həmsöhbəti məlumatlandırmaq, onu manipulyasiya etmək, ona təsir etmək, onu təhrik etmək, dilə tutulmaq və ya ondan müəyyən informasiyanı əldə etmək və sair niyyətlərlə bağlı olan nitq fəaliyyətləri proqramını) təşkil edir. Bu baxımdan, siyasi diskursda adətən ünsiyyətin təşəbbüskarı olan adresant adresatla arasında baş verəcək nitq aktını öncədən planlaşdırır. Niyyətlərini maksimal dəqiqliklə ifadə etmək üçün dil vasitələrinin seçimində adresant məqsədyönlülük prinsipinə riayət edir və kommunikativ niyyətindən asılı olaraq, bilavasitə, yaxud bilvasitə dil-ifadə vasitələrini seçir. Adresatın dil və fon bilikləri və kommunikativ kompetensiyası ona intensiya komponentini düzgün dekodlaşdırmaqda yardım edir. Siyasi xadim tərəfindən auditoriyanın şüurunu manipulyasiya etməklə ona həm eksplisit, həm də implisit şəkildə təsir etmək məqsədi daşıyan siyasi diskurs bir sosiolinqvistik fenomen olaraq böyük praqmatik potensiala malikdir.

Siyasi diskursda eksplisit əlaqələr, ilk növbədə, diskurs markerləri vasitəsilə ifadə edilir. O.Kamenskaya bu markerləri “bağlayıcılar” adlandırır və onları diskursun iki və ya daha artıq komponentlərini əlaqələndirən elementlər məcmusu kimi təyin edir və onların yardımı ilə formalaşan rekurrent, koordinat və yunktiv eksplisit əlaqə növlərini göstərir[26].

Siyasi diskursun praqmatik aspektinin ehtiva etdiyi eksplisit vahidlərdən biri də söz-referentlər olan proformalardır. Onlar qeyri-dəqiq mənaya malik olan perifrastik dil vahidləridir və mənası yalnız kontekst komponenti əsasında əxz edilir. Bu baxımdan, tərkibin bir

---

[26] Каменская, О.Л. Текст и коммуникация / О.Л.Каменская. – Москва: Высшая школа, – 1990. – с.59

komponenti semantik avtonomluğa malik olduqda, digər komponenti proforma vasitəsilə təqdim edilir:

*"We need all countries, every single one of you, to step up and commit to very substantial reductions by 2030. And I'm absolutely convinced, I passionately believe that we can do it by making commitments in four areas"*[27].

Nümunədə *we* və *every single one of you* proformaları semantik avtonomluq ifadə edən *all counries* komponenti kontekstində eksplisitlik yaradır. Beləliklə, proforma ayrıca bir cümləni, yaxud cümlələr qrupunu əlaqələndirə bilər. Onun vasitəsilə təqdim edilmiş leksik-qrammatik komponent semantik komponentdən əvvəl işlənirsə, anaforik, sonra gəlirsə, nümunədə olduğu kimi kataforik səciyyə daşıyır.

İmplisit əlaqələrin əsas xüsusiyyəti dil vahidləri vasitəsilə sözlü ifadədən yayınmaqdan; bəzi dilçilərə əsasən isə verbal və ya qeyri-verbal qənaətdən ibarətdir: *"İmplisitlik bütün insani fəaliyyət formalarına xas olan ən ümumi ənənələrdən biri kimi istifadə edilən vasitələrə və zamana qənaətdən ibarətdir"*[28]. Zənnimizcə, siyasi diskursda sözügedən qənaətə daha müxtəsər quruluşa malik mətnlərdən istifadə etməklə nail olunur – mətnin ixtisar edilməsi üçün implisit əlaqələndirmə effektiv vasitədir. Ancaq müəllifin implisitlik əlaqələrini formalaşdırması və onların resipiyentlər tərəfindən dərki sonunculardan müvafiq dil və fon biliklərinə sahib olmağı tələb edir.

***"Siyasi diskursda konseptuallaşma"*** başlıqlı üçüncü paraqrafda istənilən dildə siyasi diskursda *azadlıq, bərabərlik, vətən, millət, həmrəylik, müstəqillik, sülh, uğurlu gələcək, milli qürur* və sair kimi bir çox anlayışların açar konseptlər funksiyası daşımasına baxmayaraq, "hakimiyyət" konseptinin aparıcı olduğu qeyd edilir.

Təfəkkürün fərqli növlərinə əsasən, "hakimiyyət" konsepti həmişə eyni dəyərlər ifadə edir və vadar etmə hüququ, qabiliyyəti,

---

[27] UK Boris Johnson UN General Assembly Speech Transcript: [Electronic resource]. September 22, 2021. URL: https://www.rev.com/blog/transcripts/uk-boris-johnson-un-general-assembly-2021 -speech-transcript

[28] Каменская, О.Л. Текст и коммуникация / О.Л.Каменская. – Москва: Высшая школа, – 1990. –с.174

imkanları kimi dərk edilir və idarəetmənin əldə edilməsi ilə bağlı assosiasiyalar ehtiva edir. Bu, aşağıdakı metaforlarda əks olunur:
*hakimiyyəti ələ keçirmək – seize/take the power – захватить власть;*
*hakimiyyətə gəlmək – rise/ascend to power – подняться к власти;*
*hakimiyyətə sahib olmaq – wield the power – обладать властью;*
*hakimiyyət dəhlizi – the corridors of power – коридоры власти;*
*güc rıçaqları/vasitələri – the levers of power – рычаги власти;*
*hakimiyyət/güc ehtirası – lust for power – жажда власти* və s.

Müasir siyasi konseptlərin əksəriyyəti insanların şüurunda, əsasən mənfi assosiasiyalar yaradır. Məsələn, müasir ingilis dilində *politician* (siyasətçi) konsepti, əsasən *liar* (yalançı) sözünün semantikası ilə assosiasiya edilir. Yaxud, ilk növbədə, *government* (hökumət) sözü ilə assosiasiya olunan *politics* (siyasət) konsepti də mənfi qiymətləndirmə (*bore* (üzüntü), *cheat* (kələk, fırıldaq), *deceit* (yalan) və s.) ehtiva edir[29]. Rus dilinin assosiasiyalar lüğətinə nəzər saldıqda, bir çox siyasi konseptlərin rusdilli təfəkkürdə mənfi assosiasiyalar yaratdığının şahidi oluruq: *политика* (siyasət) konsepti bir çox hallarda *грязная* (çirkli) sifəti ilə əlaqələndirilir[30].

E.Şeyqalın qeyd etdiyi kimi, siyasi diskursda liderin yüksək ensiklopedik, linqvistik və interaktiv kompetensiyasını nəzərdə tutan kommunikativ liderlik anlayışı "hakimiyyət" konsepti ilə bilavasitə bağlıdır[31]. Müəllif siyasətçinin effektiv ünsiyyəti şərtləndirən əsas inandırma metodları onun klassik ritorik kateqoriyalardan (etos, pafos, loqos) istifadə etmə bacarıqlarını əhatə edir. V.Karasik də siyasi diskurs dəyərlərinin hakimiyyət tərəfindən hüquqların əsaslandırılmasını və qorunmasını nəzərdə tutduğunu qeyd edir[32].

Siyasi diskursda konseptlərin işlənmə tezliyi onların əhəmiyyət dərəcəsinin yeganə ölçü meyarı deyildir. Konseptlərin linqvistik

---

[29] Word Associations Network. An ideographic dictionary or thesaurus [Electronic resource]. URL: https://wordassociations.net/en

[30] Русский ассоциативный словарь: [Электронный ресурс]. URL: htpps://tesaurus.ru›dict

[31] Шейгал, Е.И. Семиотика политического дискурса: /дисс. доктора филол.наук/ / – Волгоград, 2000. – с.112

[32] Карасик, В.И. Языковой круг: личность, концепты, дискурс / В.Карасик. – Волгоград: Перемена, – 2002. – 477 с.

vahidlər vasitəsilə ifadə edilməsi yalnız natiqin siyasi prioritetlərə – auditoriyaya təsir strategiyalarına və inandırma bacarıqlarına sahib olduğunu göstərir. Məsələn, Barak Obama prezident postuna irəli sürülərkən onun çıxışının əsas leytmotivi ölkənin daxili və xarici siyasətində islahatlar aparılmasından ibarət idi. *Change* (dəyişiklik) sözü onun çıxışında ən çox təkrar edilmiş (20 dəfə) söz olmuşdu və onun etosu diqqəti Amerika mədəniyyətinin diktə etdiyi yeni olan hər şeyə can atma, keçmişə deyil gələcəyə köklənməyə yönəltmişdi.

Britaniya dövlət başçılarının daim müraciət etdiyi əsas mövzu olan "Birləşmiş Britaniya cəmiyyəti" (United British society) və müvafiq olaraq, onların nitqlərində yer alan *equality, fair play, creativity, tolerance, an outward looking approach to the world, openness and adaptability, work and self-improvement, strong communities and families* kimi konseptlər britaniya dəyərlərini nümayiş etdirir. Bunlardan başqa, "*stronger together*" konseptinə daha çox müraciət edilməsini hakimiyyət və siyasət anlayışlarının eyni dəyərlər ehtiva edən konseptosferdə birləşdirilməsi cəhdi kimi təfsir etmək olar.

ABŞ siyasi diskursunda aparıcı konseptlərə gəldikdə, onların arasında ən əhəmiyyətlisinin "American dream" olduğunu qeyd etmək gərəkdir. Fərdiyyətçilik və kapitalizmin sıx həmrəyliyi nəticəsində yaranmış bu konsept güc və öz gücünə inam əlamətlərini birləşdirir. ABŞ milli etosu olan bu konsept *democracy, rights, freedom, eqality* kimi milli idealları təcəssüm etdirən sözlər vasitəsilə ifadə edilir və sosial, dini, irqi, etnik mənsubiyyətindən asılı olmayaraq hər vətəndaş üçün çiçəklənmə, uğur və sosial pillələrdə yüksəliş vəd edən dövlət obrazının formalaşmasına xidmət edir.

Yüksək ifadəlilik göstəricisi olan üslubi fiqurlar və troplar da müasir siyasi diskursda konseptuallaşma mənbəyidir. Siyasi diskursda bu üslubi vasitələrdən istifadənin əsas məqsədi söyləmin perlokutiv təsirini mühafizə etməkdən ibarətdir. Bu mənada, üslubi fiqurlar sırasında antiteza, inversiya, ellipsis, fonetik/leksik/sintaktik təkrarlar, sintaktik paralellik, ritorik suallar və sair vahidlər daha fəaldır. Ən çox istifadə olunan troplardan isə metafor, metonimiya, müqayisə, personifikasiya, simvol və epitetin adını qeyd etmək olar.

Siyasi diskursda təzahür edən üslubi vasitələr əksər hallarda

milli-mədəni kolorit ehtiva edir və bu mənada, metaforlar bariz milli kolorit daşıyıcılarıdır. Siyasi metaforların müxtəlif dillərdə müqayisəsi mental səviyyədə onların analogiyaya əsaslandığını və mental səviyyədə bənzər funksiyalar daşıdığını aşkara çıxarır: *Dəmir yumruq – Iron fist – Железный кулак.* Bəzən metaforlarda assosiativ xassə milli (subyektiv) səciyyə daşıyır. Məsələn, rus dilində *таять* sözü texniki assosiasiya oyadır, ancaq Amerika ingiliscəsində *melting pot* metaforundakı *melt* sözü tamamilə fərqli assosiasiya yaradır: fərqli mədəniyyətlərə və siniflərə malik insanları birləşdirən bir cəmiyyət. Azərbaycan dilində bu birləşmə eyni məna daşımır, yalnız hərfi şəkildə tərcümə edilir və dilimizə "keyfiyyətsiz materialdan hazırlanmış əriyən qazan" kimi tərcümə olunur.

Siyasi diskursda metafor rəmzi və ritorik səciyyə daşıyır. M.Edelmanın təbirincə: *"metafor siyasətdə gizli tendensiyaları və kütlələrdə impulsları oyadır"*[33]. Siyasi diskursun kommunikativ təsir nəticəsində müxtəlif ictimai qrupları birləşdirən və onlara vahid bir orqanizm kimi fəaliyyət göstərməyə imkan verən əsas fəaliyyət formasının *"siyasəti qidalandıran güc mənbəyi"*[34] olduğunu nəzərə alsaq, bu fikirlə razılaşmamaq mümkün deyil.

Beləliklə, siyasi diskursda konseptuallaşma siyasi situasiya haqqında müəyyən fikirlərin konseptlər şəklində formalaşmasını şərtləndirən obyekt və hadisələrin təfəkkürdə inikasıdır.

Dissertasiyanın III fəsli **"Siyasi diskursun leksik-semantik və qrammatik reprezentasiyası"** adlanır və dörd paraqrafa bölünür.

Birinci paraqraf ***"Siyasi diskursun ümumi leksik səciyyəsi"*** adlanır.

Burada qeyd olunur ki, siyasət dili hakimiyyətin rəsmi dilidir və ona aid dil-təsir vasitələri bədii, publisistik və məişət dilində istifadə olunan linqvistik vasitələrdən fərqlidir: "... *siyasi diskursun praqmatikası mövcud informasiya məqamı üçün etik, koqnitiv və aktual inteqrasiya vasitəsi kimi ifadə olunan funksional təbiəti tərəfindən müəyyənləşir. Məhz bu səbəbdən, kommunikativ*

---

[33] Edelman, M. Politics as Symbolic Action: Mass Arousal and Quiescence. / M.Edelman. – Chicago: Markham, – 1971. – p.67

[34] Graber, D. Political Communication: Scope, Progress, Promise // Political Science: The State of the Discipline. – 1993. vol. 2, – p.305

*rəngarənglik üçün qrammatik, leksik və üslubi (bağlayıcılar, əvəzliklər, artikllar, söz sırası, təkrar, metonimiya, metafor, antonomasiya, toponimlər, bədii əsərlərə allüziyalar və digər presedent fenomenlər) səviyyələrdə müxtəlif ritorik strategiyalara tez-tez müraciət səciyyəvidir"*[35].

Siyasi nitq publisistik üslubun (əsasən, media vasitəsilə) kütlələrə təsir etməyə hədəflənmiş növüdür. Bu növ məqalələrdə, esse və müsahibələrdə natiqlik janrında təsadüf olunan spesifik ictimai-siyasi lüğətə, məntiqi qanunauyğunluğa və emotivliyə yer verilir. Eyni zamanda, elmi üslubdan fərqli olaraq, siyasi nitqdə informasiya həm məhdud mütəxəssislər çevrəsi üçün, həm də geniş ictimaiyyət üçün nəzərdə tutulmuşdur. Məntiqi ardıcıllıqla yanaşı, obrazlılıq, emotivlik, dəyərləndirmə və hərəkətə çağırış siyasi nitqin səciyyəvi üslubi xüsusiyyətləri sırasına daxildir – burada, adresatın təfəkkürü ilə yanaşı hissləri də təsir hədəfinə çevrilir: *"Təkcə leksik-semantik sistemin qeyri-mühitə nisbiliyi, natamamlığı və qeyri-adekvatlığı deyil, həm də linqvistik qiymət və qiymətləndirmənin subyektivliyi dil-ifadə vasitələrinin bir-biri ilə əlaqələnməsindən doğan boşluq və təxminiliklər, digər tərəfdən ünsiyyət prosesində motivlər, məqsədlər müxtəlifliyi, alternativlər çoxluğu dil toxumasını danışanın əlində (və dilində) elastik və asan istifadə olunan bir kütləyə, asanlıqla hər yerə axıb gedən bir məhlula – mütəhərrik bir mexanizmə çevirir"*[36].

Siyasi diskursda auditoriyaya təsir linqvistik (leksik, frazeoloji, sintaktik), ekstralinqvistik (intonasiya) və paralinqvistik (mimika, jest, duruş) səviyyələrdə həyata keçirilir. Paraqrafda siyasi nitqin leksik səviyyəsinə aid dil vahidləri tədqiq edilir.

Təhlillərimiz nəticəsində siyasi diskursda siyasi leksikanın, politoloji terminologiyanın, idiologemlərin *(пролетариат (proletariat), народ (xalq), свобода (azadlıq), социализм (sosializm), демократия (demokratiya))*, siyasi neologizmlərin *(uzaq xaric – far abroad – дальнее зарубежье, yaxın xaric*

---

[35] Allahverdiyeva, A.M. Siyasi diskursda metaforik arqumentasiya // – Bakı: Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri, – 2018. № 4, – s.35

[36] Abdullayev, S.Ə. Qeyri-səlis dilçilik təcrübəsi / S.Abdullayev. – Bakı: "Victory", – 2013. – s.54

*(postsovet ölkələri) – near abroad – ближнее зарубежье, şaquli hakimiyyət – vertical power structure – вертикаль власти, sabitlik qövsü – arch of stability – дуга стабильности, dondurulmuş münaqişələr – frozen conflicts – замороженные конфликты)* və arxaizmlərin *(исполком (icraiyyə komitəsi), горком (şəhər komitəsi), горсовет (şəhər soveti))*, ümumişlək leksikanın və klişelərin *(müvafiq olaraq – аналогично этому – by the same token, dəqiq ifadə etsək – строго говоря – strictly speaking)*, jarqon leksikasının və alınmaların *(de-yure (qanuni), de facto (real, faktik), persona non grata (arzuolunmaz şəxs)* – latın dilindən, *attache (attaşe – səfarətxana işçisi)* – fransız dilindən, ümumi və müəllif abreviaturlarının *(ASEAN – Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası)*, qeyri-obrazlı sabit frazaların *(təməl qoymaq – закладывать основу – lay the foundation, hərəkətə gətirmək – сдвинуть с мертвой точки – set in motion)*, istinadların və sitatların *(R.Reyqan: the evil empire – şər imperiyası; U.Çörçill: the iron curtain – dəmir pərdə)*, stereotip təqdimat ifadələrinin *(iddia etmək olar ki ... – можно утверждать, что ... – it may be argued that)* üstünlük təşkil etdiyi aşkar olundu.

III fəslin ***"Siyasi diskursda semantik yayğınlıq"*** başlıqlı ikinci paraqrafında ideoloji interpretasiya freymi çərçivəsində siyasi diskursun informativlik və fatiklik xassələri qarşılaşdırılır.

Siyasi diskursun əsas funksiyaları sırasında informativliyin ümumiyyətlə yer almadığını qəbul etmək doğru olmaz. Siyasi diskurs janrından asılı olaraq informativliklə fatiklik arasındakı münasibətlər maraq doğurur. İnformativlik dərəcəsinin yüksəkliyi informasiyanın məzmun baxımından yenilik ehtiva etməsinə və qeyri-bayağı səciyyə daşımasına əsaslanır. Fatiklik isə məzmun yeniliyinə malik deyil – diskursun emotiv-ekspressiv və ritual korrelyasiya xassələrinə əsaslanır və informativliklə ziddiyyət təşkil edir.

Siyasi diskursda, ənənəvi olaraq nominativ-konseptual dəqiqliklə semantik yayğınlıq arasında ziddiyyət mövcud olmuşdur. Bir tərəfdən, siyasət dili həkimlərin, hərbçilərin, hüquqşünasların və sair mütəxəssislərin dili kimi peşəkar alt dil olduğundan, maksimal konseptual dəqiqliyə nail olmağa çalışır. Digər tərəfdən, praqmatik funksiya siyasi diskursda nominativ dəqiqliyin sıxışdırılmasına və

semantik yayğınlığa yol verilməsinə səbəb olur.

M.Qavrilova siyasi diskursda semantik yayğınlığın semantik-praqmatik faktorlar səbəbindən baş verdiyini qeyd edir və bunun 4 formasını göstərir:

1) Məna genişliyi və mücərrədliyi. Siyasətçilər tez-tez mücərrəd mənalı sözlərdən istifadə etməklə semantik dəqiqlikdən yayınır. Geniş semantikaya malik olan sözlər, məsələn, *proses, hadisə, missiya* sözləri referensial qeyri-müəyyənlik nəticəsində şərhlərdə geniş yayğınlıqlara səbəb olur. "Demokratiya" sözü əvəzinə "parlamenti təmsil edən demokratiya" birləşməsindən istifadə də buna nümunədir.

2) Semantik mürəkkəblik, əslində denotatın mürəkkəblik xassəsindən qaynaqlanır. Siyasət dilində ənənəvi təcrübə ilə bilavasitə bağlı olmayan kompleks ideyalar bildirən leksik vahidlərin (*defolt* (öhdəliklərin yerinə yetirilməməsi), *impiçment* (mühakimə edərək vəzifəsindən kənarlaşdırmaq)) dərk edilməsində yaranan mürəkkəblik ekstralinqvistik faktorlar səbəbindən baş verə bilər.

3) Qradual (dərəcələnən) semantika sözlər arasındakı semantik sərhədlərin pozulması, xüsusilə, siyasi oriyentasiya şkalası üzrə siyasi istiqamətin dəqiq müəyyənləşdirilməməsi ilə müşahidə olunur. Məsələn, *mühafizəkar – liberal – mütərəqqi – radikal – mürtəce.*

4) Semantik nisbilik siyasi mövqenin ifadəsi zamanı təzahür edir. Eyni platforma bir siyasətçinin mövqeyini mürtəce, digərininkini isə liberal kimi əks etdirə bilər. Semantik nisbilik mənaca yaxın sözlərin müxtəlif ideologiyaların nümayəndələri tərəfindən müxtəlif anlayışları ifadə etmək üçün istifadə edilən ideoloji polisemantiklik anlayışı ilə qarşılıqlı asılılığa malikdir[37].

Beləliklə, siyasi diskursun informativ məzmununu sıxışdıran affektiv-qiymətləndirici tərkibin əhəmiyyət dərəcəsinin artması nəticəsində semantik nisbilik yaranır. Bu dil hadisəsi bu və ya digər sosial qrup tərəfindən siyasi reallığın interpretasiyasının ifadə forması olan kollektiv konnotasiyalar (*demokratiya, azadlıq, həmrəylik, liberal, mühafizəkar* və s.) şəklində təzahür edir. Semantik nisbilik mənaca yaxın sözlərin müxtəlif ideologiyaların

[37] Гаврилова, М.В. Политическая коммуникация XX в. / М.Гаврилова. – Санкт-Петербург: Изд-во Невского инст. языка и культуры, – 2008. – с.7-8

nümayəndələri tərəfindən fərqli anlayışların ifadəsi zamanı müraciət olunan ideoloji polisemantikliklə qarşılıqlı asılılığa malikdir.

Kommunikativ ziddiyyətlər siyasi diskursun məzmununda tam şəkildə əks olunur və üç funksional səviyyədə təzahür edir:

– oriyentasiya: siyasi mövqenin formalaşdırılması;
– inteqrasiya: siyasi tərəfdaşların qazanılması;
– aqonallıq: siyasi rəqiblərlə mübarizə.

Müvafiq olaraq, siyasi diskursda üç növ ziddiyyət işarələrini fərqləndirmək olar: oriyentasiya, inteqrasiya və aqonallıq.

Siyasi diskursda oriyentasiya funksiyası əsas siyasi komponentlərə – siyasi subyektlərə və dəyərlərə aid olan işarələr (oriyentasiya markerləri) tərəfindən həyata keçirilir. Onlar xüsusi nominativ işarələrdən – siyasi institutların adlarından, institusional vəzifələr yerinə yetirən siyasətçilərin vəzifə adlarından, sosial-mədəni yer adlarından ibarətdir. Siyasi subyektlərin adları assosiativ olaraq siyasi dəyərlərin adları ilə bağlıdır və ənənəvi olaraq mədəniyyətlərarası universalilər olan məkani metaforik terminlərin (*sağ, sol, mərkəz* və s.) inikas olunduğu siyasi oriyentasiya şkalasına uyğun ifadə olunur. Siyasi oriyentasiya şkalası, həmçinin rəng adları bildirən terminlər (*ağ, qara, qırmızı, sarı* və s.) vasitəsilə işarələnir.

"Biz" invariant komponentinin ehtiva olunduğu xüsusi inteqrasiya markerləri, ilk növbədə, qeyri-verbal olanlardan – milli dövlət rəmzlərindən (bayraq, gerb, himn), eləcə də kollektiv identikliyi ifadə edən emblemlərdən (məsələn, siyasi partiya və hərəkatların emblemləri), siyasi xadimlərin portretlərindən və heykəllərindən, ritual davranışlardan (çələng qoyulması, ictimai-siyasi klişelərdən istifadə, teatrallıq, affektivlik) və s. ibarətdir. Lozunqlar və şüarlar da inteqrasiya funksiyasını yerinə yetirir və aparıcı ideyanı, siyasi mübarizənin məqsədini ifadə edir, tərəfdarlar toplamaq və onlara sosial həmrəylik hissini təcrübədən keçirməkdə, ifadə etməkdə yardım etmək vəzifələrini daşıyır:

*"Bir millət, iki dövlət!"* – Azərbaycan ilə Türkiyə arasındakı yaxın qardaşlıq münasibətlərini xarakterizə edən ifadə.

*"Справедливость, солидарность, свобода!"* – Rusiya Sosial-demokratlar partiyasının lozunqu.

*"Experience counts!"* – 2019-cu ildə ABŞ Konqresinə

seçkilərdə namizəd Debora Mörfinin seçki kompaniyasının lozunqu.

Aqonal funksiya vulqar leksika (nalayiq və ədəbsiz sözlər, söyüşlər) ilə əlaqələndirilsə də, institusional kommunikasiya normaları tərəfindən qəbuledilməzdir və onları gündəlik danışıq dilindən iqtibas edilmiş praqmatik alınmalar kimi qiymətləndirmək olar. E.Şeyqala əsasən, siyasi diskursda bu leksik vahidlər aqressivlik markerləri deyildir. Müəllif siyasi diskursda aqonallığın xüsusi leksik-semantik markerlərinin, ilk növbədə, "özgəlik" ifadə edən leksemlərdən, eyni zamanda uzaqlıq semantik komponentinə malik mənalı işarələrdən (*o, onlar, orada, kənar, yad, xarici* və s.), kiçiltmə və azaltma ifadə edən leksik vahidlərdən (*hər cür, müxtəlif, bəziləri, istənilən biri* və s.), rəqibə qarşı inamsızlıq, onun sözlərinə qarşı tərəddüd ifadə edən qrafik işarələrdən (dırnaq işarələri, üç nöqtə) və modal markerlərdən (*sanki, ... adlanan/adlı, bədnam, dırnaqarası* və s.) ibarət olduğunu qeyd edir[38]. Beləliklə, inteqrasiyada olduğu kimi, aqonal ekspressivlik zamanı da fatiklik informativlik üzərində üstünlüyə malikdir.

Siyasi diskursda verbal aqressiya, həmçinin, invektiv leksika (*satqın, dələduz, təxribatçı* və s.), siyasi partiyaların və hərəkatların rəsmi və danışıq dilinə xas ekspressiv adlar (*faşistlər, bolşeviklər, milli vətənpərvərlər* və s.), onların davranışlarına, fəaliyyətlərinə əsasən siyasətçilərə verilən adlar (*separatist, diktator, populist, ekstremist* və s.) və etnonimlər *(asiyalılar, qafqazlılar, sionistlər, müsəlmanlar, mühacir şəbəkəsi, genosid* və s.) vasitəsilə ifadə edilir.

Mövzu ilə bağlı ədəbiyyatların təhlili göstərdi ki, siyasi diskursda sözügedən üç funksional ziddiyyət səviyyələrin praqmatik təkamülü semiotik cəhətdən bir növün dəyişərək digərinə keçməsini mümkün edir və bəzən onların markerləri arasındakı sərhədlər qəti təsbit edilmir. Bu təkamülün əsas istiqaməti informativlikdən fatikliyə doğru hərəkətdən – deskriptiv məzmunun zəifləməsindən, praqmatik məzmunun isə qüvvətlənməsindən ibarətdir; başqa sözlə, oriyentasiya əlamətlərinin ya inteqrasiya əlamətlərinə ("biz" ideoloji konnotasiyası və müsbət emotivlik), ya da aqressiya əlamətlərinə ("onlar" ideoloji konnotasiyası və mənfi emotivlik) çevrilməsi

---

[38] Шейгал, Е.И. Семиотика политического дискурса: /дисс. доктора филол.наук. / – Волгоград, 2000. – с.381-382

prosesidir.

Fəslin üçüncü paraqrafı ***"Siyasi diskursda məsafə strategiyasının qrammatik ifadəsi"*** adlanır.

Kommunikativ davranış strategiyasını formalaşdırmaq və yadda saxlamaq həmişə mümkün olmadığından, kommunikativ strategiyaların seçiminə analitik yanaşma tələb olunur. Siyasi diskursda bu yanaşma özünəməxsus milli-mədəni xüsusiyyətlərin inikasını və linqvistik vasitələrin seçimini ehtiva edən nəzakətlilik kateqoriyasının məsafə strategiyası vasitəsilə gerçəkləşir.

Nitq vasitəsilə effekt müəyyən kontekstdə adresata lazımi təsiri göstərə biləcək verbal işarə(lər)dən və onun ifadəsi məqsədilə müxtəlif linqvistik vasitələrdən istifadə prosesidir. Məhz bu səbəbdən natiqdən yalnız sözlərin deyil, eyni zamanda effektiv qrammatik konstruksiyaların seçimi tələb olunur.

Qrammatik ideologemlər siyasi diskursda morfoloji və sintaktik vasitələrlə ifadə olunan ideoloji mənanın qüvvətləndirilməsinə yardım edən linqvistik markerlərdir. Xüsusi sintaktik və morfoloji kateqoriyalar: əvəzliklərin seçimi, nominallaşdırma, söz sırasının tənzimlənməsi, məlum və məchul növdən istifadə, mürəkkəb cümlənin tərkibinin seçimi, konkret verbal konstruksiyalara (danışıq modellərinə) müraciət, təyini-ismi birləşmələrin, yiyəlik halın, zaman formalarının seçimi və sair dil faktları multidisiplinar səciyyəyə malik olduğu üçün siyasi diskurs təhlilləri zamanı diqqəti cəlb edir. Siyasi diskursun semantik kompozisiyası ilə yanaşı, sintaktik strukturu istər qüvvətli, istərsə də zəif emfatiklik yaratmağa, konkret sözləri, fraza və birləşmələri vurğulamağa və natiqin siyasi maraqlarına uyğun olaraq spesifik semantik çaların ifadə edilməsinə vəsilə ola bilər[39].

Leksik-semantik vasitələrlə yanaşı, siyasi diskursda qrammatik vasitələr də dünyanın dəyərlər xəritəsi ilə bilavasitə bağlıdır. Bundan başqa, həmin xəritə milli özəlliyi də inikas etdirir. Məsələn, amerika

---

[39] Чейф У.Л. Данное, контрастивность, определенность, подлежащее, топики и точка зрения // – М.: Новое в зарубежной лингвистике, – 1982. Вып. XI, – с.277-316; Fowler, R. Language and control. 1st edition. / R.Fowler, B.Hodge, G.Kress: [et al] – London: Routledge & Kegan Paul. – 1979. – 232 p.; Kress, G. Language as ideology. / G.Kress, B.Hodge. Second Edition. – London: Routledge & Kegan Paul, – 1993. – 230 p.

dəyərlərinin təsviri zamanı morfoloji plana tez-tez müraciət olunur və bu öz ölkələrinin əzəməti ilə bağlı amerikalıların mental vektorunu əks etdirir:

*"Together, we resolved that a great nation must care for the vulnerable, and protect its people from life's worst hazards and misfortune.*

*We are true to our creed when a little girl born into the bleakest poverty knows that she has the same chance to succeed as anybody else, because she is an American; she is free, and she is equal, not just in the eyes of God but also in our own.*

*They are the words of citizens and they represent our greatest hope"*[40].

Qüvvətləndirici sifətlər və zərflər, müəyyən və qeyri-müəyyən saylar da siyasətçilər tərəfindən tez-tez müraciət olunan morfoloji vahidlərdir. Onlar müəyyən tarixi hadisəni xatırlatmaqla auditoriyanın öz ölkəsi ilə fəxr etməsinə və vətənpərvərlik ruhunun yüksəlməsinə səbəb olur:

*"Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edil"mişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.*

*Son 15 il ərzində bu yolla gedərək biz böyük uğurlara imza atdıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır. Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verirdi: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Azərbaycan xalqı bu 15 il ərzində sabitlik şəraitində yaşamışdır. Bu da inkişafımız üçün əsas şərtdir"*[41].

Təhlilə cəlb etdiyimiz nitqlərdə siyasi diskursda məsafə strategiyasının reallaşdırılması məqsədilə müraciət olunan əsas qrammatik vasitələrin modal feillər, modallıq markerləri, feilin lazım

---

[40] Inaugural Address by President Barack Obama: [Electronic resource]. January 21, 2013. URL: https://obamawhitehouse.archives.gov/the-press-office/2013/01/21/ inauguraladdress-president-barack-obama

[41] İlham Əliyevin andiçmə mərasimində nitqi: [Elektron resurs]. – 18 Aprel, –2018. URL: https://president.az/az/articles/view/28071

şəkli, feilin məchul növü, zamanların dəyişməsi, deyktik əvəzliklər və söz sırası olması aşkar edildi.

III fəslin dördüncü paraqrafı ***"Siyasi diskursda presedentlik"*** adlanır.

İctimai-siyasi qaydalar çərçivəsində həyata keçirilən siyasi kommunikasiya həm dil, həm də qeyri-dil işarələri vasitəsilə kodlaşdırılır və özünəməxsus ölçü vahidlərinə malikdir. Siyasi diskurs iki – real və virtual ölçü vahidlərinə malik olan işarənin formalaşmasıdır. Real ölçü vahidi siyasi kommunikasiya zamanı təzahür edən konkret mətni, virtual ölçü vahidi isə müraciət edilən presedent söyləmlər tezaurusunu, tipik danışıq modellərini və tipik ünsiyyət janrlarını əhatə edir.

Siyasi reallıq ayrı-ayrı şəxslərin və bütövlükdə, xalqın taleyinə təsir edən çıxışlar, bəyanatlar və qərarlar şəklində siyasətçilərin şifahi fəaliyyətləri vasitəsilə formalaşır. Siyasi diskurs ictimai-siyasi mərasimlər və seçki kampaniyaları kimi bir çox qeyri-verbal fəaliyyətləri əhatə etsə də, əsas halqa partiyanın tərəfdarlarını bir-birinə bağlayan, müxtəlif nəsillərə mənsub partiya üzvlərinin siyasi baxışlarının davamlılığını vurğulayan, partiyalar və bütün siyasi sistemlər arasındakı əlaqəni nümayiş etdirən sözdən (şifahi və ya yazılı) ibarətdir. Bu fakt mətnlərarası bilvasitə informativ əlaqələrə əsaslanmanı – presedentliyi siyasi kommunikasiyanın xarakterik xüsusiyyətləri sırasına daxil edir.

Siyasi-kommunikativ tədqiqatlar zamanı adresatın intermətnlik, transmətnlik, paramətnlik, metamətnlik kimi presedentlik kateqoriyalarına müraciət etməsi müşahidə edilir. Sosial şəbəkələrdə elektron kommunikasiya prosesində formalaşan hipermətnlik kateqoriyası da artıq bu sıraya daxil olmuşdur. İntermətnlik informativ xətti strukturu təşkil edən sintaqmatik əlaqələrə əsaslanır, hipermətnlik isə siyasi diskurs tezaurusunun mətnlər sistemini aktuallaşdıraraq resipiyenti mətnin hüdudlarından kənara çıxarır.

Siyasi ünsiyyət prosesində auditoriyaya təsir etmək və ictimai şüuru manipulyasiya etmək vəzifəsini daşıyan presedentlik informasiyanın bilvasitəliliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. Başqa bir mətnə müraciət etmək və onun müəyyən fraqmentini öz mətninə daxil etmək siyasətçiyə ideoloji prinsiplərini, ictimai-

siyasi və mədəni dəyərləri nümayiş etdirməyə imkan verir, eyni zamanda onun nitqini daha dolğun və inandırıcı edir.

Müasir siyasi diskursda presedentlik və üslublararası tonallıq xüsusilə diqqəti cəlb edir. Bunu onunla izah etmək olar ki, siyasi diskurs onu ümumi siyasi diskursun zərrəsi kimi səciyyələndirən və daha geniş mənada, hətta antik ritorika üçün səciyyəvi olmuş, milli mədəniyyətin elementi kimi qavranılmasını təmin edən müxtəlif söyləmlərin elementlərini ehtiva edir[42]. Sözügedən elementlər, əsasən aşağıdakı presedentlik formaları vasitəsilə təqdim edilir:

– presedent mətnlər (bədii əsərlər, folklor nümunələri, dialoqlar və s.);

– presedent aplikasiyalar (mənbəni göstərmədən mətn fraqmentlərinin (sitatlar, aforizmlər, ayrı-ayrı söz və ifadələr) hərfi təqdimatı);

– presedent allüziyalar (adresata məlum olan virtual və ya obyektiv gerçəklikdəki fakta gizli və ya aşkar assosiativ istinad (məsələn, müəyyən tarixi situasiya (*Qettisberq, Appomatoks hadisələri*) – bilavasitə deyil, bilvasitə (hadisənin yeri, zamanı və ya müəyyən əlaməti göstərilməklə) şəkildə də təqdim edilə bilər);

– presedent parafrazlar (sabit birləşmənin və ya mətnin leksik tərkibinin dəyişdirilməsi texnikası);

– presedent adlar (məşhur bir şəxsin (siyasətçi, hərbi lider, alim, yazıçı, ədəbi əsərin qəhrəmanı və s.) ad, soyad və müəyyən rəmzi keyfiyyət, səciyyəvi cəhət vasitəsilə inikas olunur. Məsələn, Amerikada demokratiya Avraam Linkolnun adı ilə əlaqələndirilir və bu *The Great Emancipator* (Böyük Xilaskar), *The Railsplitter* (Dəmiryolçu), *Honest Abe* (Vicdanlı Ata) kimi adlarda əksini tapır.

Əsas funksiyası hakimiyyət uğrunda mübarizədən ibarət olan siyasi diskursda presedentlik auditoriyaya təsir etmək üçün qüvvətli vasitədir. Bu vasitənin məqsədi auditoriyaya daha çox təsir etmək, inandırmaq, söyləmin birmənalılığını təmin etmək, o cümlədən müəllifin fikrini ifadə etmə tərzinə diqqəti cəlb etməkdən ibarət olan müxtəlif strategiyalar (aqonallıq, inteqrasiya, məlumatlandırma, sövqetmə, əlaqələndirmə) vasitəsilə həyata keçir. Bu zaman istifadə

---

[42] Чудинов, А.П. Политическая лингвистика (уч.пос.) / А.Чудинов. – М.: Флинта: Наука, – 2006. – с.114

olunan strategiyalar natiqin niyyətinə uyğun seçilir[43].

Siyasətçinin nitqində başqasının fikrinin yer alması, bir qayda olaraq həmin fikrin ideoloji xassə əldə etməsinə vəsilə olur. Çünki bu ya həmfikir birisinin, ya da siyasi rəqibin bəyanatına edilmiş istinaddır. Məsələn, Prezident İlham Əliyevin iki fərqli nitqindən götürülmüş aşağıdakı nümunələrdə siyasətçilərin nitqlərinə istinadlar edilir. Cənab Prezident birinci parçada öz həmfikri ilə ortaq dəyərlərə sahib olduqlarını vurğulayır ki, bu kimi situasiyalarda edilmiş istinad və ya gətirilmiş sitat ritorikada "avtoritetin arqumenti" (argumentum ab auctoritate) strategiyası adlanır:

*"Mənim, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri Paşinyanın Brüsseldə baş tutmuş üçtərəfli görüşümüzün nəticələrinə dair cənab Şarl Mişel tərəfindən yayılmış bəyanatda aydın şəkildə deyilir ki, Qarabağda yaşayan erməni əhalisinin də hüquqları və təhlükəsizliyi nəzərə alınacaq. Biz bunu tam şəkildə dəstəkləyirik"*[44].

İkinci nümunədə isə Cənab Prezident rəqibinin onun mülahizələrini təsdiqləyən fikirlərini xatırladaraq öz mövqeyini qüvvətləndirir:

*"Mr. Prime Minister was just pointing that it was Stalin who made a decision to give Nagorno-Karabakh to Azerbaijan which is wrong because again, look at the Caucasus Bureau July 1921, when it is said to retain Nagorno-Karabakh in Azerbaijan and not to transfer it to Azerbaijan"*[45].

Məşhur siyasətçilərdən sitatlar gətirmək siyasətçiyə ideoloji rəqiblə mübarizədə öz mövqeyini möhkəmləndirməyə yardım

---

[43] Попова, Е.А. Интертекстуальность как средство воздействия в политическом дискурсе (на мат. англ. текстов о полит. карьере А.Шварценеггера): / дисс. канд. фил. наук: 10.02.02/ – Самара, 2007. – 220 с.; Рыбачук, К.Ю. Типология интертекстуальных включений в современном политическом дискурсе Великобритании и США // – Тамбов: Филологические науки. Вопросы теории и практики, – 2016. №11 (65), ч. 3. – с.164-167

[44] IX Qlobal Bakı Forumunun açılışında İlham Əliyevin nitqi: [Elektron resurs]. 16 İyun, 2022. URL: https://president.az/az/articles/view/56458

[45] Panel discussions on Armenia-Azerbaijan Nagorno-Karabakh conflict held as part of Munich Security Conference: [Electronic resource]. February 15, 2020. URL: https://president.az/en/articles/view/35813

etdiyindən, siyasi mübarizə aləti mahiyyəti əldə edir. Bəzən bu strategiyadan siyasi rəqibi ittiham etmək, gözdən salmaq, ruhdan salmaq kimi spesifik növlər törəyir. Bəzən isə digər siyasətçiyə istinad etmə məhz həmin siyasi ideologiyanın mahiyyətinin qüvvətləndirilməsinə xidmət edir. Beləliklə, presedentlik müxtəlif mətnlərin bir-birinə qarşılıqlı təsirini gerçəkləşdirərək siyasi diskursun çoxqatlı və polisentrik quruluş əldə etməsinə vəsilə olur.

Dissertasiyanın sonuncu, IV fəsli **"Siyasi diskursda arqumentasiyanın bilavasitə və bilvasitə linqvistik inikası"** adlanır və beş paraqrafdan ibarətdir.

***"Arqumentasiya elmlərarası fenomen kimi"*** başlıqlı birinci paraqrafda arqumentasiyanın siyasi diskursun ayrılmaz elementi olduğu – auditoriyanı inandırmaq və onun dəstəyini qazanmaq üçün siyasətçinin fərdi yanaşmasını arqumentləşdirməli olduğu fikri irəli sürülür. *"Mətnin mənasının böyük hissəsi linqvistik vasitələrlə ifadə olunmadığından mətnin başa düşülməsi prosesi riyazi məsələlərin həlli kimi şərh edilə bilər'*[46] fikri hətta yazılı kommunikasiya prosesində əsaslı arqumentlərin seçiminə, müddəaların doğruluğuna və nəticələrin etibarlılığına nail olmaq üçün həm adresantdan, həm də adresatdan xüsusi arqumentləşdirmə bacarıqlarının tələb olunduğunu nəzərdə tutur.

Siyasi nitqlərin debatlardan, siyasi polemikalardan, müzakirələrdən və ya mübahisələrdən ibarət olan geniş bir sahəni əhatə etdiyini nəzərə alsaq, arqumentlər, sübutlar və dəlillər məntiqi əsaslandırmanın – arqumentasiyanın yalnız bir hissəsini təşkil edir. Əsasların, dəlillərin, arqumentlərin axtarışında, onların təhlilində, seçilməsində, yoxlanılmasında və məntiqi nəticələrinin qiymətləndirilməsi ilə alternativ versiyaların sistemli şəkildə nəzərdən keçirilməsində, adresat üçün ən təsirli hallərin seçilməsində, habelə ən çox istifadə olunan inandırma vasitələrinin müəyyənləşdirilməsində intellektual fəaliyyət kimi təzahür edən arqumentasiya kommunikasiya prosesinə nüfuz edərək onun özəyini təşkil edir: *"Bu cür nitq fəaliyyəti həmişə müəyyən mədəni, tarixi və sosial kontekstdə gerçəkləşir. Qeyd etmək lazımdır ki,*

---

[46] Mammadov, A. Studies in text and discourse. / A.Mammadov. – Baku: Azerbaijan University of Languages. – 2008. –p.51

*kommunikasiya prosesində müəyyən məqsədə nail olmaq üçün işləndikdə söyləm özlüyündə arqumentasiyaya çevrilir. Nitq təsir komponentlərindən biri, başqa sözlə, arqumentasiyanın strateji vəzifələrindən biri inandırmaqdır. Bu vəzifə adresatın dünya xəritəsini dəyişdirməyə, bununla da onun təfəkkürünü idarə etməyə yönləndirilmişdir"*[47].

Xüsusi fərdi təfəkkürün imkanlarının ən aydın şəkildə təzahürü fonunda ümumi kollektiv şüur mədəniyyətinin formalaşdığı hazırkı dövrdə arqumentləşdirmə istiqamətində aparılan inteqrativ elmi tədqiqatlar daha da aktuallaşmışdır. Bu istiqamətdə həyata keçirilən elmlərarası araşdırmalar Arqumentasiya Tədqiqatları Beynəlxalq Cəmiyyəti (ISSA (International Society for the Study of Argumentation)) tərəfindən koordinasiya edilir.

Arqumentasiya nəzəriyyəsi vahid bir elm sahəsini əhatə etmədiyi üçün onun sırf praktik (məsələn, ritorik) məqsədlərlə qeyd-şərtsiz tətbiqi məqsədəuyğun deyildir. Bu nəzəriyyə müəlliflərinin (H.Perelman, L.Olbrext-Titeka, S.Tulmin) təmsil etdikləri elm sahəsinə uyğun olaraq bir sıra istiqamətləri əhatə edir. Fərdi ritorikanın sürətli inkişafı bu sahədə arqumentasiyasının təsvirini tələb etsə də, ümumi arqumentasiya konsepsiyasının olmaması bu sahədəki bir çox məsələlərin həllini ləngidir.

Mövcud məntiqi, psixoloji və praqmalinqvistik yanaşmalardan məhz sonuncusunun tərəfdarları arqumentasiyanı münaqişəni bir tərəfin xeyrinə həll etmək məqsədi daşıyan təsdiq və ya təkzib nitq aktlarından təşkil olunmuş interaktiv kommunikasiya növü kimi təqdim edirlər. Bu baxımdan, F.İmeren və R.Qrutendorst tərəfindən arqumentasiyaya verilmiş tərifi daha məqbul hesab edirik: *"Arqumentasiya ifadə edilmiş fikri təsdiq və ya təkzib etmək üçün hazırlanmış və rasional hakimi* (auditoriyanı – A.A.) *müəyyən bir nöqteyi-nəzərin düzgünlüyünə, ifadə olunan fikrin məqbul və ya qeyri-məqbul olduğuna inandırmağa yönəlmiş bir sıra söyləmlərdən ibarət nitq aktıdır"*[48]. Beləliklə, həmmüəlliflərin nümayiş etdirdiyi

[47] Allahverdiyeva, A.M. ABŞ siyasi diskursunda arqumentasiya strategiyaları // – Bakı: Dil və ədəbiyyat, – 2017. № 4(104), – s.144

[48] Eemeren, F. Argumentation, Communication, and Fallacies. A Pragma-dialectical Perspective (1st ed.) / F.Eemeren, R.Grootendorst, – Routledge: – 1992, – p.24

praqmalinqvistik yanaşma istər nəzəri, istərsə də praktik səviyyədə arqumentasiya ilə bilavasitə əlaqəlidir və bu fenomenin verbal, sosial, rasional ritorik fəaliyyət olduğunu göstərir. Bu baxımdan, arqumentasiyanın öyrənilməsinə ritorik yanaşma tətbiq edilməlidir.

Arqumentasiya doktrinasına əsasən, arqumentin ünvanlandığı və onun məqbul olub-olmamasına qərar verən auditoriyaya münasibət Qədim Yunanıstandan bugünədək ritorikanın mahiyyətini təşkil etmişdir. Bunun müqabilində, antik dialektika və qeyri-formal məntiq ideyalarını canlandıran tənqidi təfəkkür nəzəriyyəsi, diskurs nəzəriyyəsi, arqumentasiya nəzəriyyəsi və süni intellekt nəzəriyyəsi də daxil olmaqla, yeni tədqiqat sahələrinin meydana gəlməsini şərtləndirən iki fundamental əsər nəşr edildi. "Arqumentin tətbiqi" monoqrafiyasında S.Tulminin "fəal məntiq" (*"working logic"*) anlayışını təqdim etməsi[49] və H.Perelmanın L.Olbrext-Titeka ilə həmmüəllifi olduğu "Yeni ritorika: Arqumentasiya haqqında traktat" kitabında[50] irəli sürdükləri "yeni ritorika" ("neo-rhetoric") anlayışı elmi ictimaiyyəti, bir növ, silkələdi. Bu əsərlərdə müəlliflərin pafosu diqqəti ideal məntiqi konstruksiyalardan təfəkkürün biliyə və təcrübəyə əsaslanan inandırma proseslərinə yönəltməkdən ibarət idi.

Qeyd edilənləri nəzərə alaraq və dissertasiya işinin mövzusundan çıxış edərək siyasi diskursda arqumentasiyanın məqsədinin inandırma yolu ilə auditoriyanın dəstəyini əldə etməkdən ibarət olduğu qeyd edilməlidir. Başqa sözlə, siyasi diskursda arqumentasiya institusional kontekstdə irəli sürülmüş tezisin məqbul/qeyri-məqbul olmasına inandırmağa yönəlmiş ictimai-siyasi kommunikativ fəaliyyətdir, makro-nitq aktıdır.

İkinci paraqraf ***"Kommunikativ-diskursiv arqumentasiya"*** adlanır.

Tədqiqatçılar nitq aktları nəzəriyyəsinə əsaslanmaqla yanaşı, birdən artıq söyləm ehtiva etdiyi və yüksək interaktivliyə malik olduğu üçün arqumentasiya nitq aktı ilə digər nitq aktları arasındakı fərqlərə diqqət yetirirlər. Məsələn, T.Tretyakova mübahisələrin

---

[49] Toulmin, S.E. The Uses of Argument. / S.E.Toulmin. – Cambridge University Press; Updated edition, – 2003. – 262 p.

[50] Perelman, Ch. The New Rhetoric: A Treatise on Argumentation. / Ch.Perelman, L.Olbrechts-Tyteca. – University of Notre Dame Press, –1991. – 576 p.

həllinin tənqidi müzakirə modelinin aşağıdakı dörd dialektik fazalarda həyata keçdiyini qeyd edir:

1) qarşılaşdırma mərhələsi (mübahisə);

2) başlanğıc mərhələsi (antaqonist və protoqonist rolların bölüşdürülməsi);

3) arqumentasiya mərhələsi (fikirlərin toqquşması);

4) yekun mərhələ (mübahisənin bir tərəfin xeyrinə həlli) [51].

Təsnifatdan göründüyü kimi, mübahisələr polemik səciyyəlidir. Natiqin rəqiblərinə qarşı müxalif münasibətini inikas etdirən polemikalar siyasi diskurs üçün də səciyyəvidir. Bu, siyasi diskursun arqumentasiya təhlilini şərtləndirir və leksik planda müəyyən tərəfdən müsbət qiymətləndirilən anlayışların digər tərəfdən mənfi, hətta aşkar təhqir kimi qəbul edilməsi ilə nəticələnir. Beləliklə, siyasi diskursun təhlili zamanı yalnız onun ümumi polemik mahiyyətindən deyil, interaktiv dialoji fəaliyyətin inteqrativ şərhi şəklində təqdim oluna bilən arqumentləşdirmə potensialından da bəhs edilməlidir.

Siyasi diskurs stereotip arqumentasiya model(lər)inə əsaslansa da, fərqli arqument növlərini, eləcə də arqument modellərini ehtiva edə bilər. Məsələn, o, ictimai-siyasi əlaqələri əks etdirən analogiyaya əsaslanan model əsasında qurulmuş mühakimədə auditoriyanı natiqin mövqeyinə inandırmağa hədəflənmiş predikatlar ehtiva edən arqumentlərdən ibarət ola bilər. Fərqli arqument növləri və verbal konstruksiyalar müxtəlif səviyyəli arqumentasiya modellərinin yaranmasına səbəb olur. Bunu əyani şəkildə nəzərdən keçirmək üçün Böyük Britaniyanın İcmalar Palatasının 19.07.2023-cü il tarixində keçirilmiş iclasında edilmiş çıxışlar üzərində tərəfimizdən təhlillər aparılmış və aşağıdakı nəticələr hasil edilmişdir:

1. Məqsədi siyasi kommunikasiya iştirakçılarının birgə fəaliyyəti üçün zəruri olan qarşılıqlı anlaşmaya nail olmaqdan ibarət olan inandırma modelində əsas arqumentləşdirmə yükü insanın koqnitiv fəaliyyətinin ən qüvvətli linqvistik ifadə vasitəsi olan predikatların (*judge, implement, be relevant*) üzərinə düşür və arqumentin nüvəsini onlar təşkil edir.

---

[51] Третьякова, Т.П. Опыт лингвистического анализа аргументации в политическом диалоге // – Санкт-Петербург: Коммуникация и образование, Сб. ст. Под ред. С.Дудника, – 2004. – с.299-320

2. Səbəb-nəticə əlaqəsi əsasında arqumentləşdirmə modeli üstünlük təşkil edir.

3. Təsdiq, inkar, fərziyyə, məqbulluq, qeyri-məqbulluq, eləcə də emotiv-qiymətləndirmə nitq aktları (sevinc, məyusluq, qəzəb, təəssüf hissləri ifadə edən) vasitəsilə təqdim olunmuş şərhedici arqument modelləri də fəallığa malikdir [52].

Arqumentləşdirmə prosesində hər inandırma vasitəsi spesifik qrammatik strukturlar və leksik inventar ehtiva edir. Başqa sözlə, onların seçiminə xüsusi diqqət yetirilir. Burada ritorik inandırma vasitələri sayca üstünlük təşkil etsə də, siyasi diskursda nümunələr (statistika, rəqəmlər və s.), istinadlar (avtoritetə, fakta və s.), sitatlar və arqumentlərin ardıcıllığı onların sırasından ən aparıcı olanlarıdır.

***"Siyasi diskursda arqumentasiya kateqoriyaları"*** başlıqlı III paraqrafda siyasi diskursda kommunikativ niyyətin verballaşmasının məhz geniş dil-nitq təsir vasitələri sayəsində mümkün olduğu qeyd edilir. Arqumentləşdirmə prosesində sözügedən vasitələrlə təsir mövzusunda həyata keçirilmiş son linqvopolitoloji tədqiqatlar elmi dövriyyəyə "suqqestivlik" və "persuazivlik" terminlərini daxil etdi.

Persuazivlik şifahi və ya yazılı məlumat müəllifinin adresatı inandırmaq, onu müəyyən hərəkətləri etməyə/etməməyə sövq etmək məqsədilə tətbiq etdiyi təsir vasitəsidir. Persuaziv kommunikasiya insanların məlumatları məqsədyönlü şəkildə emal etdikləri situasiyalarda təzahür edir və resipiyentin müəyyən davranışına səbəb olmaq, onun nöqteyi-nəzərinə, münasibətinə təsir etmək məqsədi daşıyır. Bu zaman koqnitiv fəaliyyətə gizli təsir etməklə yanaşı, effektivliyi təmin etmək üçün müəyyən arqumentasiya taktika və strategiyalarına (müsbət özünütəqdimat, rəqibin diskreditasiyası, imperativlik və s.) müraciət edilir.

Beləliklə, dissertasiyada persuazivlik arqumentasiyanı qüvvətləndirmək üçün ritorik və üslubi vasitələrdən, sofizmlərdən və bəzi mətn kateqoriyaları (implisitlik, modallıq) vasitəsilə gerçəkləşən inandırma strategiyası kimi qiymətləndirilir.

Siyasi diskursun funksional aspektinə əsasən, persuazivlik

---

[52] Oral evidence: Work of the Financial Conduct Authority: [Electronic resource]. HC 142. – July 19, – 2023. URL: https://committees.parliament.uk/oralevidence/13541/pdf/

aparıcı arqumentləşdirmə strategiyasıdır. Ziddiyyətli səslənsə də, burada linqvistik vasitələr semantik baxımdan həmişə inandırma ehtiva etməyə bilər. Bu zaman inandırma diskursun struktur-semantik, praqmatik və ritorik potensialının vəhdətində reallaşır. Başqa sözlə, siyasi diskursda persuazivlik presuppozisiya, təsdiqedici və ya təkzibedici arqumentlər və onların ayrı-ayrı növlərinin seçimi, eləcə də adresatın adresantın etosu və digər keyfiyyətlərindən (cinsi, sosial-iqtisadi statusu, təhsili, emosional vəziyyəti və siyasi baxışları) ibarətdir. Beləliklə, persuazivlik siyasi ünsiyyəti xarakterizə edən arqumentativ-ritorik-praqmatik kateqoriyadır.

Suqqestivlik adresantın məqsədlərinin bilvasitə həyata keçirilməsinə yardım edən linqvistik səviyyənin xüsusi marker-komponentlərini və strukturlarını nəzərdə tutur. Bu komponent duyğuların, qeyri-iradi düşüncələrin, obrazların, psixi və fiziki vəziyyətlərin təlqini ilə əlaqədardır. Persuazivlik kimi, suqqestivlik də diskursun həm mikro, həm də makrolinqvistik səviyyələrində təzahür edir. Mikrolinqvistik xüsusiyyətlər fonetik, prosodik, qrafik, orfoqrafik, sintaktik, leksik, söz yaradıcılığı, morfoloji, bir sözlə, işarələr sistemi olan dilin bütün səviyyələrinin potensialını əhatə edir. Makrolinqvistik səviyyə şəxs kateqoriyasını, informasiya izafiliyini, kommunikativ strukturu və janr xüsusiyyətlərini ehtiva edir.

Həm suqqestivlik, həm də persuazivlik resipiyentin bu və ya digər məlumatı qeyri-ixtiyari qəbul etməsini nəzərdə tutur. Onların arasındakı fərq, ilk növbədə, ondan ibarətdir ki, persuaziv vasitələr kommunikativ bloklar şəklində təzahür edir və semantik "fəndlər" vasitəsilə arqumentasiyanı qüvvətləndirməyə imkan verən sofist mühakimələr ehtiva edir. Suqqestivlik isə forma (fonetik, qrafik, sintaktik, bəzən leksik və sözdüzəldici səviyyələr) və ya mənanın (morfem və söz səviyyələri) təsirə məruz qaldığı propozisiyaya qədərki səviyyədə həyata keçir.

Bundan başqa, persuazivliyi və suqqestivliyi mətn kateqoriyaları səviyyəsində müqayisə etdikdə, subyektiv modallıq səviyyəsində emotiv-qiymətləndirmə elementlərinin təsiri nəticəsində persuazivliyin məzmun komponentinin (denotatın) şəkildəyişməyə məruz qaldığı müşahidə edilir. Suqqestivlik isə məzmuna və mənaya deyil, mətnin qavranılması prosesinə təsir edir və onun

mənimsənilməsini ya optimallaşdırır, ya da buna mane olur.

Persuazivlik və suqqestivliklə yanaşı, siyasi diskursda, həmçinin imperativlik arqumetləşdirmə strategiyaları sırasında yer alır. Bunu onunla əsaslandırmaq olar ki, siyasi diskurs yalnız inandırmaq və ya idarə etmək deyil, eyni zamanda hərəkətə çağırış funksiyasını yerinə yetirir.

İmperativlik təşviqat və çağırış ifadə edən linqvistik vasitələrin diskursda iştirakını nəzərdə tutur. O, təşviqatın ünvanladığı auditoriyanın xarakterinə uyğun olaraq – resipiyentə münasibətdə, adresant ilə resipiyentin birgə fəaliyyətinə münasibətdə və ya ünsiyyətdə bilavasitə iştirak etməyən subyektin təşviq edilməsinə münasibətdə təsnif edilir. Bu baxımdan, A.Bondarko kateqoriyalı (bilavasitə) və kateqoriyasız (bilvasitə) linqvistik imperativlik növlərini fərqləndirir [53].

Bilavasitə imperativlik feilin əmr formaları (xüsusilə, III şəxs (*qoy-пусть/пускай-let*) feil konstruksiyaları) vasitəsilə ifadə olunur. Bilvasitə imperativlik feilin məsdər formaları, əmr formasında olan feillərin buraxıldığı elliptik konstruksiyalar, nominal konstruksiyalar, feilin lazım şəkli, xahiş, əmr, nəsihət, təklif ifadə edən modal feillər və dil hadisələri ehtiva edən söyləmlər vasitəsilə gerçəkləşir.

***“Siyasi diskursda linqvoritorik arqumentasiya strategiyaları”*** başlıqlı IV paraqrafda arqumentasiya prosesində istifadə olunan linqvoritorik vasitələrin etosa, səbəb-nəticə və analogiya əlaqələrinə əsaslandığı bildirilir.

Aristotel ritorik müraciət üsullarını etos, pafos və loqos növlərinə əsasən qruplaşdırmışdır. Ənənəvi olaraq etos və pafos qeyri-arqumentativ, loqos isə arqumentativ inandırma vasitələrini ehtiva edir. Arqumentativ vasitə nəticə səviyyəsində məntiq qaydalarına riayət etməyi tələb edir və bu baxımdan “məntiq nümayişi taktikası” adlanır. Qeyri-arqumentativ vasitə nə nəticə ilə, nə də analogiya qaydaları ilə əlaqədar olmadığından “*paralogik nümayiş taktikası*” hesab edilir [54].

---

[53] Бондарко, А.В. Теория функциональной грамматики. Темпоральность. Модальность / А.В.Бондарко. – Ленинград: Наука, –1990. – 263 с.

[54] Карнеги, Д. Учись выступать публично и влиять на широкий круг людей / Д.Карнеги. – Москва: Знание, – 2000. – 358 с.

S.Tulminin funksional-arqumentativ modeli məhz məntiq nümayişi taktikasını əks etdirir[55]. Paralogik nümayiş isə tezisin əsaslandırılması prosesində fərdi üslubu "bəzəmək" məqsədilə obrazlı dildən istifadəni ehtiva edir və əsasən, aşağıdakı üslubi vasitələrin yardımı ilə təqdim edilir[56]:

1) sintaktik fiqurlar (inversiya, xiazm, antiteza);

2) leksik fiqurlar və ya troplar (metafor, metonimiya, alleqoriya, ironiya, sarkazm və s.);

3) təfəkkür fiqurları (mübaliğə, litota, qradasiya).

Paralogik taktikanın əsasını adresantın və adresatın ümumi əxlaqi və etik keyfiyyətlərinə əsaslanan inandırma metodu olan etos və hisslərə, emosiyalara ünvanlanan pafos təşkil edir. Kommunikativ-praqmatik yanaşmaya əsasən, ifadə olunan fikrin məqbul olduğuna inandırmaq üçün arqumentasiyada etosa davamlı olaraq müraciət olunur. Buna əsaslanan tədqiqatçılar arqumentasiyanın paralogik texnika olduğunu iddia edir[57]. Bu iddianı qəbul etsək, arqumentləşdirmə məntiqə əsaslanmayaraq auditoriyanın xüsusiyyətlərini nəzərə alır. Bu nöqteyi-nəzər arqumentasiyanı ritorik vasitələrlə eyniləşdirməyi qəbul etməyən praqmalinqvistika məktəbinin nümayəndələrinin mövqeyi ilə ziddiyyət təşkil edir.

Mövzuya praqmalinqvistik prizmadan yanaşdıqda, müxtəlif linqvistik vahidlərin bütün dil səviyyələrində aktın müxtəlif aspektlərini əhatə edən arqumentasiya strategiyalarının həyata keçirilməsində bilvasitə rolunun şahidi oluruq. Siyasi kommunikasiyada istifadə olunan dil-nitq strategiyaları natiqin linqvistik davranışının əsas elementləridir: *"Onlar natiqin silsilə qərarlarını, onun müəyyən kommunikativ fəaliyyətlərini və dil vasitələrini seçməsini və ya kommunikasiyanın strukturunda bir sıra məqsədlərin həyata keçirilməsini"*[58]. Bu strategiyalar, bilavasitə, kommunikantların niyyətləri ilə bağlıdır – qlobal xarakter daşıyan

---

[55] Toulmin, S.E. The Uses of Argument. / S.E.Toulmin. – Cambridge University Press; Updated edition, – 2003. – 262 p.

[56] Воробьёва, О.И. Политический язык: семантика, таксономия, функции: / дисс. доктора филол. наук / – Москва, 2000. – 382 с.

[57] Клюев, Е.В. Риторика / Е.Клюев. – Москва: Изд-во ПРИОР, – 1999. – с.113

[58] Макаров, М.Л. Основы теории дискурса / М.Макаров. – Москва: ИТДГК «Гнозис», – 2003. –с.37

niyyətlər faktiki diskurs strategiyalarını nəzərdə tutur. Niyyət şəxsi məqsədlərə nail olmaqdan ibarət olduğu zaman isə tətbiq olunan strategiyalar lokal və ya kommunikativ qrupu əks etdirir.

Kommunikasiya nəzəriyyəsinə əsasən, siyasi diskursa xas kommunikativ taktikalar sırasına həmlə, müdafiə, neytrallıq, məhəl qoymama, təşəbbüsü ələ alma və sair daxildir. Bir neçə taktikanın birləşməsi vasitəsilə emotivlik və persuazivlik dərəcəsini daha da qüvvətləndirmək və ya zəiflətmək mümkündür.

Aristotel tərəfindən irəli sürülmüş ritorik modelə əsasən, arqumentasiya strategiyalarına vasitəli və vasitəsiz məntiqi arqumentlər (loqos) vasitəsilə inandırmaq, adresantın xarakteri və reputasiyası ilə (etos) bağlı arqumentlər və emosional (pafos) arqumentlər daxildir. Siyasi diskursda həm vasitəli, həm də vasitəsiz məntiqi arqumentlər qrupundan fəal istifadə edilir.

Vasitəsiz məntiqi arqumentlər kommunikativ öhdəliyin məqsədyönlü təşviqini modallıq və imperativlik kateqoriyalarının yardımı ilə həyata keçirir:

*"Biz təhlükəni də yaxşı anlayırıq. Siz minaları qeyd etdiniz, bu, ən böyük təhlükələrdən biridir. Eyni zamanda, biz hər şeyi lazımi qaydada etmək istəyirik. Proses mümkün qədər tez keçməlidir, lakin fikrimiz ondan ibarətdir ki, burada ən yaxşı memarlıq təcrübəsi və ən yaxşı texnologiya, o cümlədən yaşıl texnologiya tətbiq edilməlidir ki, yaşayış üçün ən yaxşı şərait yaradılsın"*[59].

Burada loqos modallıq vasitəsilə təqdim edilmişdir.

Vasitəli məntiqi arqumentlər faktik-ekzistensial arqument növüdür və faktlar vasitəsilə bilvasitə şəkildə ifadə olunur, faktı ya təsdiq, ya da təkzib edir. Məsələn, növbəti nümunədə loqos təsdiq arqumenti əsasında qurulmuşdur:

*"Beləliklə, bir gündən də az sürən antiterror əməliyyatı bizə imkan verdi ki, suverenliyimizi bərpa edək. Yeri gəlmişkən, əməliyyat elə tərzdə aparılmışdır ki, mülki infrastruktura zərər dəyməyib və dinc əhali arasında itkilər olmayıb"*[60].

---

[59] İlham Əliyev. "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər": [Elektron resurs]. Forum. ADA Universiteti. 6 Dekabr 2023. URL: https://president.az/az/articles/view/62400

[60] Yenə orada.

Müasir siyasi diskursda arqumentasiya strategiyalarının həyata keçirilməsində bilvasitə rol oynayan linqvistik vasitələr bu mənanı kontekstdən azad şəkildə ifadə edir. Sözügedən vasitələrə, əsasən komissiv və ekspozitiv feillər, bağlayıcılar, zərflər, əvəzliklər, modal söz və ya ifadələr, təkrarlar, qiymətləndirici leksika, aforistik kəlamlar, inklüziv leksika, üslubi vasitələr və s. daxildir.

IV fəslin sonuncu, beşinci paraqrafı ***"Siyasi diskursda yanlış arqumentlər və onların linqvistik ifadəsi"*** adlanır.

Arqumentləşdirmə prosesinin bütün mərhələlərində tənqidi müzakirənin əsas prinsiplərini inikas etdirən dialektik qaydalara riayət olunmalıdır. Bu qaydaların pozulması məntiqi arqumentləşdirmə prosesini əngəlləyir və yanlış arqumentə səbəb olur: *"Arqumentasiyada / mülahizədə yanlış zəminlərə, ehtimala əsaslanan nəticələr və ya yanlış təsəvvürlər səbəbindən yaranan səhv məntiqi xəta adlanır"*[61]. Beləliklə, arqumentləşdirmə prosesində yol verilən xəta tənqidi müzakirənin həyata keçirilməsi qaydaları ilə əlaqədardır və akt iştirakçılarının fikir ayrılığını aradan qaldırmaq cəhdlərini qismən və ya tam əngəlləyən yanlış arqumentə səbəb olur.

Əslində, "yanlış arqument" evfemistik termindir. Çünki yanlışlıq adlandırılan bu arqumentlər əksər hallarda məntiqi xətadan ibarət olmayıb, auditoriyanı çaşdırmaq məqsədilə məqsədyönlü şəkildə yol verilmiş səhvlərdir. İngilis dilində bu anlayış "fallacy" adlandırılır və semantik baxımdan Azərbaycan dilindəki "səhv" və ya "xəta" sözləri ilə eyniyyət təşkil etmir. Müxtəlif ingilisdilli lüğətlərdə bu sözün etibarsız dəlillərə əsaslanan yanlış inam, uğursuz əsaslandırma nəticəsində yaranan etibarsız arqument, yanlış əsaslandırma və sair bənzər tərifləri təqdim olunur.

"Fallacy" sözü "fallax" (aldadıcı) və "fallere" (aldatmaq) kimi iki latın sözlərindən əmələ gəlmişdir. Yanlış arqumentlər tənqidi müzakirələrin əsasını təşkil edən qarşılıqlı açıq fikir mübadiləsini əngəlləyən anlayışlar ehtiva edir və auditoriyanın şüurunu fərdi maraqlarla idarə etməyə çalışır. Onlar auditoriyaya qarşı düşünülmüş şəkildə yaradılmış tələdir və ümumi arqument sxemlərinə uyğun yaradıldığından, ilk səslənmədə əsaslı arqument təəssüratı yaradır.

---

[61] Zeynalova, S. Introduction to Rhetoric. / S.Zeynalova, A.Allahverdiyeva. – Baku: Mutarjim, – 2017. – p.121

Məhz bu səbəbdən, A.Almasavi yanlış arqumentlərin fakt və ya inanc xətası deyil, *"düşüncə prosesinin ehtiva etdiyi təfəkkür və ya əsaslandırma səhvi"* olduğunu bildirir [62]. *"Yanlış arqument yanılma və ya çaşma nəticəsində arqumentlərdən qeyri-düzgün istifadədir"* kimi bənzər fikirlər də mövcuddur [63].

Qeyd edilənlərə rəğmən, yanlış arqument özü də bir arqumentdir və bu fakt onun da əsaslardan (sübutlardan), səbəblərdən, müddəalardan və bu müddəalardan hasil olunan nəticədən ibarət olduğunu nəzərdə tutur. İstənilən arqumentin qiymətləndirilməsi zamanı həm əsaslar, həm də nəticələr əhəmiyyət daşıyır. Əsaslar dolğun, bitkin və dəqiq olmalıdır, aydın və təkzibedilməz nəticə isə həmin əsaslardan hasil edilməlidir. Çünki yanlış arqument doğru nəticə təəssüratı yarada bilsə belə, arqumentin yanlış olub-olmadığını mühakimə etmək üçün meyar rolunu oynayır. Bu yanaşma yanlış arqumentlərin də arqumentasiya nəzəriyyəsi baxımından təhlil edilməsinin mümkünlüyünü sübut edir. Arqumentasiya nəzəriyyəsi çərçivəsində arqument *"mübahisəli nöqteyi-nəzərin məqbullüğunu yüksəltməyə (və ya azaltmağa) yönəlmiş şifahi və sosial əsaslandırma fəaliyyəti"* kimi təyin edilir [64].

Mənbələrdə 150-yədək yanlış arqument növləri göstərilir. Onlar formal (quruluşuna görə) və qeyri-formal (məzmununa görə) olmaqla iki kateqoriyaya bölünür. Aristotel də yanlış arqumentləri verbal və qeyri-verbal olmaqla iki qrupa bölmüşdür [65]. Verbal olanlar dildən istifadə zamanı qeyri-müəyyənliyə və ya xətaya yol verildiyi zaman, qeyri-verbal qrupa daxil olanlar isə qüsurlu əsaslandırma nəticəsində yaranan arqumentlərdir.

Siyasi diskursda öz nitqlərini əsassız müraciətlər üzərində quran siyasətçilərin dilində yanlış arqumentlərə tez-tez təsadüf

---

[62] Almossawi, A. An illustrated book of bad arguments. / A.Almossawi.– New York: Jasper Collins, – 2014. – 57 p.

[63] Santoso, J.M. A Fallacy analysis of the arguments on the first US presidential debate between Hillary Clinton and Donald Trump // K@ ta Kita, – 2017. 5(2), – p.66

[64] Boukala, S. European Identity and the Representation of Islam in the Mainstream Press // Argumentation and Media Discourse: – Springer, 2018. –p.92

[65] Aristotle. On Sophistical Refutations. / Aristotle. CreateSpace Independent Publishing Platform, – 2012. – 52 p.

**olunur**[66]. Bir çox hallarda yanlış arqumentlər müxtəlif linqvistik-ritorik vasitələrlə formalaşdırılır.

Siyasi diskursda manipulyasiya adresant ilə adresat arasında interaktiv kommunikasiya prosesində gerçəkləşdiyindən, həm yanlış arqumentlərdə adresata maksimum təsir göstərən məlumatın/mesajın şərhinə, həm də müraciət olunan strategiyaların səciyyələndirilməsinə ehtiyac vardır. Bu baxımdan, onların aşağıdakı üç səviyyədə həyata keçirilməsi məqsədəuyğundur:

1) Faktik məzmunun şərhi.

2) Mətn strukturlarının şərhi.

3) Dil-ifadə vasitələri.

Hər üç səviyyə üzrə nüfuzlu mənbəyə müraciət, diskreditasiya, metafor, müqayisə, ironiya, təkrar, nida, ümumxalq dili leksikası və "biz/onlar" konseptual qarşıdurmasının ən ümumişlək yanlış arqumentləşdirmə strategiyaları olduğu aşkar edildi.

Sonda qeyd edilməlidir ki, dissertasiyada qarşıya qoyulan məqsəd və vəzifələrə, irəli sürülən müddəalara uyğun olaraq siyasi diskursda arqumentasiyanın tədqiqinin nəzəri və metodoloji əsaslarının səciyyələndirilməsi məqsədilə, ilk növbədə diskurs və siyasi diskurs anlayışlarının praqmatik-koqnitiv və kommunikativ-linqvistik təhlili həyata keçirildi. Eyni zamanda, arqumentasiya nəzəriyyəsinin əsas müddəalarının siyasi diskursda inikası təqdim edildi. Mövzu ilə bağlı elmi-nəzəri ədəbiyyatın təhlili nəticəsində belə bir qənaət hasil olundu ki, siyasi diskurs intensionallıq, arqumentləşdirmə, dialogizm kateqoriyalarına əsaslanan və kommunikantlar arasında sosial interaktiv kontekstdə həyata keçən mental prosesin verballaşmasıdır.

Həmçinin, aşkar edildi ki, adresantın arqumentləşdirmə kateqoriyasına müraciəti yalnız müvafiq strategiyalardan inandırma və ya manipulyasiya vasitəsi kimi istifadə etməklə öz motiv və niyyətlərini həyata keçirməsinə deyil, eyni zamanda adresatın arqumentləşdirən tərəf olduğuna sübutdur. Qarşılıqlı planlaşdırılmış sosial fəaliyyət olan arqumentasiyanın verbal ifadə vasitəsi kimi istifadə olunan linqvoritorik strategiyalar əsas tezisin müdafiəsi

[66] Whorf, B. Language, Thought, and Reality: Selected Writings of B.Whorf. / Ed. by J.Carroll and S.Chase. – Eastford, USA: Martino Fine Books, – 2011. – 294 p.

məqsədilə adresatı onun dünya xəritəsi modelinin tənzimlənməsinə zərurət olduğuna inandırmağa yönəlmiş bir sıra kontekstual-praqmatik propozisiyalar ehtiva edir. Xüsusilə, siyasi diskursda arqumentasiyanın manipulyativ potensialı bir sıra verbal strategiyaları müəyyənləşdirməyə imkan verdi.

Tədqiqat işində irəli sürülmüş müddəalara uyğun olaraq həyata keçirilmiş təhlillər zamanı əldə edilmiş **nəticələr** aşağıdakı kimi ümumiləşdirilir:

1. Siyasi kommunikasiyanın həyata keçirilməsinin əsas şərti onun diskursiv-linqvistik səciyyəyə malik olmasından irəli gəlir. Siyasi diskurs kommunikasiya prosesində formalaşan və bilavasitə dil vasitəsilə təzahür edən linqvo-praqmatik, semiotik, koqnitiv-psixoloji, sosial xüsusiyyətlərin məcmusundan və kommunikativ məqsədi adresatın dünya xəritəsinə nüfuz etməkdən ibarət olan adresantın arqumentasiya strategiyalarından istifadə edərək institusional mühitdə gerçəkləşdirdiyi verbal aktdır.

2. Nominativ dəqiqliklə semantik yayğınlığın çulğalanması siyasi diskursda istifadə olunan "xüsusi məqsədli peşəkar altdil" üçün səciyyəvidir. Praqmatik funksiyanın yerinə yetirilməsi prosesində nominativ dəqiqliyi sıxışdıran semantik yayğınlıq semantik nisbilik, semantik mücərrədlik, semantik genişlənmə, mürəkkəb semantika və qradual semantika şəklində təzahür edir.

3. Siyasi diskursun koqnitiv modelini təşkil edən konseptual elementlər adresant, adresat, söyləm, söyləmin predmeti, aktın zamanı, aktın məkanı, aktın situasiyası, sosial münasibətlər, iştirakçıların rolları, fərdi xüsusiyyətləri və linqvistik məkanın (mətnin) xarakteristikasından ibarətdir.

4. Siyasi nitqlərin kommunikativ strukturunu konsentrik, iyerarxik, paralel və qarışıq növlərdən ibarət olan müxtəlif tematik bloklar təşkil edir. Əsas ideyaya bağlılıq, emosional ekvivalentlik, auditoriya ilə emosional kontakt yaratmaq və auditoriyada yaranmış təəssüratı möhkəmləndirmək məqsədilə bu bloklarda fatiklik və informativlik funksiyalarına müraciət edilir.

5. Siyasi diskursun praqmatik aspekti adresatda informasiyaya qarşı lazımi münasibət(lər)i oyatmaq və ona məqsədyönlü təsiri gerçəkləşdirmək xassəsinə malikdir. Adresantın niyyətində inikas

olunan bu xassə həm eksplisit, həm də implisit şəkildə təzahür edir. Eksplisitlik siyasi diskursun iki və ya daha artıq komponentini əlaqələndirən rekurrent, koordinat, yunktiv bağlayıcılar və söz-referentlər vasitəsilə ifadə edilir. Siyasi diskursda implisitlik diskurs komponentlərinin qrammatik, semantik və qrammatik-semantik səviyyələrdə elliptik, tezaurus və tranzitiv formalarda təzahürünü ehtiva edir.

6. Siyasi diskursda təsir linqvistik, ekstralinqvistik və paralinqvistik səviyyələrdə mümkündür. Burada ictimai-siyasi konnotasiyaya malik mücərrəd sözlər, siyasi terminologiya, siyasi leksika, siyasi neologizmlər, ideologemlər, ümumişlək leksika, klişelər, jarqonlar, sabit frazalar, alınmalar, abreviaturlar, istinadlar və sitatlar kimi vahidlər frazafövqi səviyyədə müraciət olunan ən fəal leksik elementlərdir.

7. Siyasi diskursda leksik-semantik vasitələrlə yanaşı, qrammatik vasitələr də dünyanın dəyərlər xəritəsi ilə bilavasitə bağlıdır. Qrammatik ideologemlər siyasi diskursda morfoloji və sintaktik vasitələrlə ifadə olunan ideoloji mənanın qüvvətləndirilməsinə yardım edən linqvistik markerlərdir. Əsasən modal feillər, modallıq markerləri, feilin lazım şəkli, feilin məchul növü, zamanların dəyişməsi, deyktik əvəzliklər və söz sırası məsafə strategiyasının reallaşmasına yardım edir.

8. Siyasi diskursda konseptuallığı təşkil edən mənbə sahənin elementləri hədəf sahəni qurur və kütlələrin şüuruna təsir edir. Hədəf sahədə konseptlərin leksik-üslubi vahidlər (metaforlar, müsbət və mənfi assosiasiya yaradan leksik vahidlər, paremioloji vahidlər (atalar sözləri və məsəllər), ritorik suallar, realilər) vasitəsilə ifadə edilməsi natiqin siyasi prioritetləri (etosu) ilə yanaşı auditoriyaya emosional təsir etmə (pafos) və inandırma (loqos) bacarıqlarına sahib olduğunun göstəricisidir.

9. Siyasi diskursda arqumentasiya sosial kontekstdə irəli sürülən müddəaların məqbulluğuna inandırmağa yönəlmiş kommunikativ verbal fəaliyyətdir, nöqteyi-nəzər(lər) ehtiva edən makro-nitq aktıdır. Burada arqumentasiya inandırmağa və ya manipulyasiya etməyə yardım edən əlavə ritorik və sofist texnikaların istifadəsini, resipiyentin məlumatı qeyri-ixtiyari qəbul

etməsini nəzərdə tutan persuazivlik, linqvistik səviyyədə adresantın məqsədlərinin bilvasitə həyata keçirilməsinə xidmət edən xüsusi marker-komponentləri, strukturları nəzərdə tutan suqqestivlik və təşviqat ehtiva edən imperativlik alt kateqoriyalarını əhatə edir. Persuazivlik propozisional-semantik səciyyə daşıyır; suqqestivlik forma və ya mənanın təsirə məruz qaldığı propozisiyaya qədərki dil vahidləri fonunda, imperativlik isə kauzal şəkildəyişmələr səviyyəsində gerçəkləşir.

10. Arqumentasiya adresantla adresat arasında qarşılıqlı kommunikativ əlaqəyə əsaslandığından, siyasi diskursda manipulyasiya məqsədi daşıyan yanlış arqumentlərin təhlili zamanı onların təsnifat meyarları qismində informasiyanın şərhinin adresata maksimum təsir göstərən üç səviyyəsi seçildi:

1) faktik məzmunun şərhi;

2) mətn strukturlarının şərhi;

3) dil-ifadə vasitələri.

Ümumilikdə, nüfuzlu mənbəyə müraciət, diskreditasiya, metafor, müqayisə, ironiya, təkrar, nida, ümumxalq dili leksikası və "biz/onlar" konseptual qarşıdurmasının ən fəal yanlış arqumentləşdirmə strategiyaları olduğu aşkar edildi.

Dissertasiyanın məqsəd və vəzifələrindən irəli gələrək siyasi diskursun ayrı-ayrı janrlarında bütün növ arqumentasiya və yanlış arqumentasiya strategiyalarının təhlilə cəlb edilməsi mümkün olmadığı üçün tədqiqat işi siyasi diskursda arqumentləşdirmə potensialını tam əhatə etməyə bilər. Buna baxmayaraq, seçilmiş elmi-nəzəri ədəbiyyatın və siyasi nitqlərin təhlili əsasında formalaşmış əsər siyasi diskursda arqumentləşdirmə prosesində strateji verbal davranış resursları haqqında bir çox əhəmiyyətli nəticələr əldə etməyə imkan verir.

Bununla yanaşı, özünəməxsus linqvistik xüsusiyyətlərə malik olan məntiqi və yanlış arqumentasiya strategiyalarının geniş siyahısı onların gələcəkdə siyasi diskursun müxtəlif janrları üzrə tədqiq edilməsi istiqamətində geniş perspektivlərin mövcud olmasından xəbər verir.

***Dissertasiya işinin mövzusuna dair müəllifin dərc olunmuş elmi əsərləri:***


1. İnandırıcı nitq sistemində didaktikanın rolu // "Xarici dillərin tədrisinin aktual problemləri". Respublika elmi-praktik konfransının materialları. – Bakı: ADU, – 5-6 May, – 2016, – s.22-24.
2. Arqumentasiyanın ritorik modeli // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Doktorantların və Gənc Tədqiqatçıların XX Respublika Elmi Konfransının Materialları. – Bakı: ADNSU, – 24-25 May, – 2016, II cild, – s.140-142.
3. Linguistic identity in political discourse // "Koqnitiv və tətbiqi dilçiliyin aktual problemləri" adlı Beynəlxalq Elmi Konfransın tezisləri. – Bakı: ADU, – 20-21 oktyabr, – 2016, – s.5-7.
4. Siyasi diskurs və onun təzahür formaları // – Bakı: "Elm və Təhsil", AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2017. №2, – s.114-123.
5. ABŞ siyasi diskursunda arqumentasiya strategiyaları // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2017. №4(104), – s.144-147.
6. Azərbaycan Prezidenti İlham Əliyevin multikultural üslublu nitqləri // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi Xəbərlər, – 2018. №2, – s.12-20.
7. Characteristics and functions of political discourse // – Science and Beyond Publishing UK Ltd., British journal for social and economic research, – April 2018. Vol. 3, Issue 2, – p.31-35.
8. Siyasi diskursda metaforik arqumentasiya // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri (Elmi məqalələr məcmuəsi), – 2018. №4, – s.34-40.
9. Siyasi metaforanın koqnitiv funksiyası və onun variantları // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2018. №4(108), – s.70-73.
10. Arqumentasiya makro-nitq aktında koherentlik // – Bakı: "Elm və Təhsil", AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2018. №5, – s.61-68.

11. Ложные доводы как прагматические стратегии в политической речи // – Ужгород, Украина Закарпатски Филологични студии, – 2018. № 6 (online).
12. Siyasi diskursda metaforalar koqnitiv strategiya kimi // "Tətbiqi dilçiliyin müasir problemləri" III Beynəlxalq Elmi Konfransın tezisləri. – Bakı: Azərbaycan Dillər Universiteti, – 25-26 oktyabr, – 2018, – s.224-225.
13. İngilis dilində linqvistik-ritorik arqumentasiya vasitələri // – Bakı: AMEA, Nəsimi adına Dilçilik İnstitutu, Tədqiqlər, – 2019. №4, – s.14-19.
14. Siyasi internet-kommunikasiyanın praqmatik-üslubi səciyyəsi // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və Ədəbiyyat, – 2019. IX cild, №4, – s.7-14.
15. The peculiarities of political discourse of Theresa May // – Москва: Вестник МГЛУ, Гуманитарные науки, – 2019. №6(822), – c.171-183.
16. Pragmatic aspect of political-institutional discourse // XII Международная научная конференция «Шуйская сессия студентов, аспирантов, педагогов, молодых учёных». – Россия: Шуя, Ивановская область, – 04-05 Июля, – 2019, – c.145-146.
17. Final USA presidential debate: Reflections on some argumentative-communicative strategies // Annali D'Italia. Scientific journal of Italy, – 2020. Vol.2, №5, – p.38-44.
18. Siyasi diskursda persuazivlik ritorik strategiya kimi //– Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2020. № 2(114), – s.354-357.
19. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışında ritorik inandırma vasitələri // – Bakı: AMEA, Nəsimi adına Dilçilik İnstitutu, Tədqiqlər, – 2020. № 4, – s.3-11.
20. General pragmalinguistic overview of some lexical, syntactical and rhetoric units in argumentation // Advances in Economics, Business and Management Research, First International Volga Region Conference on Economics, Humanities and Sports (FICEHS 19) held on September 24-25, 2019. – Published by Atlantis Press SARL, – 2020, Vol. 114, – p.281-285.

21. Functional-stylistic peculiarities of political-Internet discourse // Сетевая коммуникация: новые форматы для науки, образования и продвигающих коммуникаций: материалы Международного научного форума. – СПб.: ПОЛИТЕХ-ПРЕСС, Санкт-Петербургский политехнический университет Петра Великого, – 27-28 ноября, – 2020, – с.5-7.
22. Siyasi diskursda informasiyanın interpretasiyasında təlqin strategiyası // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və Ədəbiyyat, – 2021. XI cild, №3, – s.11-22.
23. Euphemisms and dysphemisms as language means implementing rhetorical strategies in political discourse // Journal of Language and Linguistic studies, – 2021. No 17(2), – p.741-754 (online).
24. Böhran situasiyasında militarist metaforların ritorik səciyyəsi // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və Ədəbiyyat, – 2022. XII cild, №2, – s.17-27.
25. Siyasi diskursda dildən istifadə məqsədləri // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri (Elmi məqalələr məcmuəsi), – 2023. №4, – s.10-16.
26. Siyasi ingilis dilinin “yumşaq güc” statusu // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası” VII Beynəlxalq elmi konfransın materialları, – Bakı: Azərbaycan Dillər Universiteti, – 7 May, – 2024, – s.71-73.
27. Representation of the Strategy of Interception by Pitch Variations in Political Debates // – Ukraine, “Journal of Philology”, Alfred Nobel University, – 2024. 2(28), – p.296-309.
28. Siyasi diskursda konseptuallaşma və onun metaforik reprezentasiyası // – Bakı: AMEA, Nəsimi adına Dilçilik İnstitutu, Dilçilik araşdırmaları, – 2024. №2, – s.84-93.
29. Linguistic manipulation in political communication // Collection of abstracts of the international scientific-practical conference “Topical issues of romano-germanic linguistics”. – Tashkent:

UzSWLU, November 11, 2024. – s. 324-328.
30. Siyasi diskursda persuaziv, suqqestiv və imperativ arqumentləşdirmə // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, – 2024. №4, – s.11-17.



Dissertasiyanın müdafiəsi 06 May 2025-ci il tarixində saat 11:00-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Az 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 03 Aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.03.2025

Kağızın formatı: 60x84 1/16

Həcm: 90 681

Tiraj: 100